DİNİMİZ MİLLİ-MƏNƏVİ SƏRVƏTİMİZDİR. Heydər Əliyev

www.scwra.gov.az

# CƏMİYYƏT və DİN

TƏSİSÇİ: Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi

№ 09 (383) / SENTYABR 2023-CÜ İL



Türk dünyası böyük bir ailədir və şadam ki, son illər ərzində bütün üzv və müşahidəçi ölkələr tərəfindən təşkilata böyük dəstək göstərilir. Təbii ki, növbəti illərdə də bu dəstək göstərilməlidir. Bu gün dünya miqyasında Türk Dövlətləri Təşkilatı öz layiqli yerini tuta bilibdir. Ancaq bundan sonra da fəal çalışmalıyıq ki, bizim təsir imkanlarımız daha da geniş olsun. Burada, əlbəttə ki, həm qarşılıqlı yardım, eyni zamanda, iqtisadi əlaqələrin gücləndirilməsi, siyasi müstəvidə daimi koordinasiya və məsləhətləşmələrin aparılması, təhlükəsizlik sahəsində qarşılıqlı yardım, yəni, bütün bunlar önəmli amillərdir və bizim birliyimizi daha da gücləndirəcək. Əminəm ki, yaxın gələcəkdə bizim təşkilatımızın dünyadakı mövqeyi və rolu daha da artacaqdır.

…Bu gün bizim aramızda ilk dəfə olaraq Şimali Kiprin nümayəndəsi də iştirak edir. Şimali Kipr türk qardaşlarımızı xüsusilə salamlamaq istəyirəm. Nazir burada müşahidəçi kimi, amma eyni zamanda, öz bayrağı ilə təmsil olunur. Təbii ki, Şimali Kiprin bayrağı da bizim tədbirdə dalğalanmalıdır və dalğalanacaqdır. Azərbaycan bütün Türk dünyasında birləşən qardaşlarımızın hər zaman yanında olubdur və çox sevindirici haldır ki, son Zirvə görüşündə Şimali Kipr Türk Dövlətləri Təşkilatına müşahidəçi seçilmişdir. Bu münasibətlə bütün türk qardaşlarımızı ürəkdən təbrik edirəm. Bu, bir daha bizim birliyimizi göstərir, bir daha iradəmizi göstərir. Onu göstərir ki, biz haqq yolunda hər zaman bir-birimizin yanındayıq və yanında olacağıq.

**Prezident İlham Əliyev**

Türk dövlətlərinin Bakıda keçirilən tədbirlərdə iştirak edən nazirləri ilə görüşdəki nitqindən

*7 sentyabr 2023-cü il*

## MÜBARİZ QURBANLININ RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ GÜRCÜSTANDA SƏFƏRDƏ OLUB



Səh. 4-7

## DÖVLƏT KOMİTƏSİNİN KOLLEKTİVİ BAKIDA İNŞASI DAVAM ETDİRİLƏN ZƏFƏR PARKINI ZİYARƏT EDİB



Səh. 10

## POLŞA MÜSƏLMANLARI İTTİFAQININ SƏDRİ QEYRİ-İSLAM DİNİ QURUMLARININ RƏHBƏRLƏRİ İLƏ GÖRÜŞÜB



Səh. 11

## AZƏRBAYCANDAKI YƏHUDİLƏR ROŞ HA-ŞANA BAYRAMINI QEYD EDİBLƏR



Səh. 15

# HEYDƏR ƏLİYEV FONDU TƏRƏFİNDƏN İNŞA EDİLƏN ZƏNGİLAN ŞƏHƏR MƏSCİDİNDƏ GÖRÜLƏN İŞLƏRLƏ TANIŞLIQ

Sentyabrın 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Heydər Əliyev Fondu tərəfindən inşa edilən Zəngilan şəhər məscidində görülən işlərlə tanış olub.

Dövlətimizin başçısına məsciddə görülən işlər barədə məlumat verilib.

Qeyd edək ki, Ermənistanın torpaqlarımızı işğal altında saxladığı illərdə Zəngilan rayonunda da tarixi, dini, mədəniyyət abidələrimiz erməni vandalizminə məruz qalıb, dağıdılıb, təhqir edilib. İşğal dövründə Zəngilan şəhərindəki məsciddən tövlə kimi istifadə olunub. İşğal altındakı ərazilərimiz azad edildikdən sonra Qarabağdakı tarixi, dini və mədəniyyət abidələrinin bərpası layihələri çərçivəsində Zəngilan məscidində də bərpa-tikinti işləri başlanılıb. Heydər Əliyev Fondu tərəfindən təşkil olunan yerli və xarici ekspertlərdən ibarət işçi qrup məscidin mövcud binasını qiymətləndirib, binanın konservasiyası və bərpasına, o cümlədən bu ərazidə yeni məscidin tikilməsinə qərar verilib.

Məscidin təməli Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən 2021-ci il aprelin 26-da qoyulub.

Ötən müddətdə yeni məscidin layihəsi işlənilib və tikintiyə başlanılıb. Məscidin inşası "Paşa Holding" MMC-nin dəstəyi ilə Heydər Əliyev Fondu tərəfindən həyata keçirilib.

Hazırda məscidin daxili interyerində işlər davam etdirilir, o cümlədən ərazidə abadlaşdırma işləri aparılır. Layihənin 2024-cü ilin aprelində başa çatdırılması nəzərdə tutulur.



# DÖVLƏT KOMİTƏSİNDƏ GÖRÜŞLƏR





Sentyabrın 4-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlı "Şimali və Şərqi Qafqaz yəhudilərinin irsi və mədəniyyəti" mövzusunda beynəlxalq elmi konfransın iştirakçılarından olan ABŞ-nin Stirling Fondunun prezidenti Edvard Rounun rəhbərlik etdiyi nümayəndə heyəti və İsa Məsihin Son Gün Müqəddəsləri Kilsəsinin Avropa üzrə Yetmişlər Kvorumunun nümayəndələri ilə görüşüb.

Görüş zamanı Dövlət Komitəsinin sədri ölkəmizdəki multikultural və birgəyaşayış ənənələri, dövlətin tolerantlıqla bağlı ölkə daxilində və beynəlxalq miqyasda həyata keçirdiyi siyasət və fəaliyyət, habelə Azərbaycan həqiqətləri barədə məlumat verib. Bildirib ki, Azərbaycan vəhdət və həmrəylik prinsiplərinin qorunmasına böyük səylə çalışır. Ölkədə mövcud olan milli və dini tolerantlıq, eləcə də multikulturalizm mühitinin qorunması və möhkəmləndirilməsi, insanların dini etiqad azadlığının yüksək səviyyədə təmin olunması, dini təhlükəsizliyin bərqərar olması dövlətin qarşısında duran başlıca vəzifələrdən hesab olunur. Vurğulayıb ki, müstəqilliyimizin bərpasından sonra tolerantlıq və multikulturalizm xəttini həyata keçirən Ulu Öndər Heydər Əliyevin müəyyən etdiyi siyasət dövlət başçısı İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Dini ibadət yerlərinin tikilməsi, yenidən qurulması və təmiri işində də fərq qoyulmadan bütün konfessiyalar diqqətdə saxlanılır və dövlət dini icmalara hər il maliyyə yardımı göstərir.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində əldə olunan tarixi Zəfərə diqqət çəkən M.Qurbanlı 30 illik işğaldan azad olunan ərazilərimizdə ermənilərin dağıtdığı tarixi dini abidələrin bərpasına dair görülən işlər barədə ətraflı məlumat verib, Stirling Fondunun işğaldan azad edilmiş ərazilərimizdə minatəmizləmə əməliyyatlarında yaxından iştirak etməsini yüksək qiymətləndirib. Bildirib ki, Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu Ermənistan tərəfindən vandalizmə məruz qalmış tarixi-dini abidələr, məscidlərlə yanaşı kilsə və məbədlərin bərpa edilməsini xüsusi diqqətdə saxlayır.

Səmimi qəbula və qonaqpərvərliyə görə təşəkkürünü bildirən qonaqlar Azərbaycanın bir dövlət olaraq multikulturalizm və tolerantlıq kimi humanist dəyərlərini dünyada təbliğ və öz nümunəsində layiqincə tətbiq etdiyini vurğulayıblar. İşğaldan azad olunmuş ərazilərə etdikləri səfərdən və genişmiqyaslı quruculuq işlərinin onlarda böyük təəssürat yaratmasından danışan qonaqlar bu prosesə öz töhfələrini verməkdə maraqlı olduqlarını bildiriblər.

Həmçinin görüş zamanı qonaqları maraqlandıran mövzular ətrafında fikir mübadiləsi aparılıb.

***

Sentyabrın 18-də isə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Azərbaycanın Polşadakı səfirliyinin təşkilatçılığı və DQİDK sədrinin dəvəti ilə ölkəmizdə səfərdə olan Polşa Müsəlmanları İttifaqının sədri, müfti Tomaş Mişkeviç ilə görüşüb.

Dövlət Komitəsinin sədri Azərbaycandakı sabit dini durum, dövlət-din münasibətləri, tolerant və multikultural mühit barədə danışaraq ölkəmizdə milli-mənəvi və islami dəyərlərin, dini etiqad azadlığının qorunması, dinlərarası harmoniyanın daha da möhkəmləndirilməsi sahəsində görülən işlər barədə məlumat verib. Bildirib ki, Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu mütərəqqi ənənələrin davamı olaraq Prezident cənab İlham Əliyev müxtəlif dinlərə aid tarixi-memarlıq abidələrinin, ibadət və inanc yerlərinin təmiri və bərpası, dini qurumlara maddi yardımların ayrılması ilə bağlı bir sıra sərəncam və fərmanlar imzalayıb. Həmçinin dini sahəyə göstərilən diqqətin bariz nümunəsi kimi Dövlət Komitəsinin tabeliyində Mənəvi Dəyərlərin Təbliği Fondu və Azərbaycan İlahiyyat İnstitutunun yaradılmasının sağlam dini mühitin bərqərar olması üçün geniş imkanlar açdığı diqqətə çatdırılıb.

Söhbət zamanı Azərbaycanın 44 günlük Vətən müharibəsindəki tarixi Zəfəri barədə də danışan Mübariz Qurbanlı vurğulayıb ki, tarixi, mədəni və dini irsimizə daim həssas münasibət göstərən Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu artıq ermənilər tərəfindən talan edilmiş məscid və digər dini məbədlərin bərpa, o cümlədən təmirini həyata keçirir.

Dini müxtəlifliyin qorunması sahəsində ölkəmizin əldə etdiyi nailiyyətləri qeyd edən Polşa Müsəlmanları İttifaqının sədri, müfti Tomaş Mişkeviç Azərbaycandakı məzhəblərarası həmrəyliyi və dini konfessiyalar arasındakı tolerant mühiti xüsusi olaraq vurğulayıb. Polşada fəaliyyət göstərən müsəlman icması və mənsub olduğu təşkilat barədə ətraflı məlumat verib. Eyni zamanda, gələcəkdə ikitərəfli əlaqələrin daha da dərinləşməsi yönündə qarşıda duran vəzifələrdən danışıb.

Azərbaycan Respublikasının Polşa Respublikasında fövqəladə və səlahiyyətli səfiri Nərgiz Qurbanovanın da iştirak etdiyi görüşdə iki ölkənin din siyasətini həyata keçirən qurumları arasında əlaqələrin möhkəmləndirilməsinin vacibliyi, eləcə də qarşılıqlı maraq kəsb edən digər məsələlər barədə müzakirələr aparılıb.

# PREZİDENT İLHAM ƏLİYEV VƏ BİRİNCİ XANIM MEHRİBAN ƏLİYEVA BAKIDA İNŞASI DAVAM ETDİRİLƏN ZƏFƏR PARKINDA OLUBLAR






Sentyabrın 27-də - Anım Günündə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Bakıda inşası davam etdirilən Zəfər parkında olublar.

Dövlətimizin başçısı və birinci xanım parkın girişində xatirə daşının önünə gül dəstələri qoyublar.

Prezident İlham Əliyevin 2020-ci il dekabrın 3-də imzaladığı Sərəncamda Azərbaycan xalqının Vətən müharibəsində göstərdiyi misilsiz qəhrəmanlığın və qazandığı möhtəşəm tarixi Zəfərin yaddaşlarda yaşadılması və ictimaiyyətə nümayiş etdirilməsi, şəhidlərimizin əziz xatirəsinin əbədiləşdirilməsi məqsədilə Bakıda Vətən Müharibəsi Memorial Kompleksinin və Zəfər Muzeyinin yaradılması tapşırılmışdı. Ötən müddətdə Vətən Müharibəsi Memorial Kompleksinin və Zəfər Muzeyinin layihəsi hazırlanıb. Layihəyə əsasən, torpaqlarımızın azad olunması uğrunda tarixi Qələbəyə gedən yolu, Vətən müharibəsində qəhrəmancasına döyüşmüş əsgər və zabitlərimizin, bütün şəhidlərimizin xatirəsini yaşatmaq məqsədilə kompleksin ərazisində muzeyin yaradılması nəzərdə tutulur. Muzey kompleksində Vətən müharibəsi şəhidlərinin hər birinin adı həkk olunacaq, burada toplanacaq eksponatlar ərazilərimizin işğaldan azad olunması uğrunda mübarizə aparan əsgər və zabitlərimizin igidliyini, xalqımızın əzmini bir daha nümayiş etdirəcək. Kompleks park ilə əhatə olunacaq.

8 Noyabr prospektində inşa olunan Zəfər parkı doqquz hektardan çox ərazini əhatə edəcək. Əraziyə girişdə 44 tağ elementindən istifadə edilib. Tağlar Qələbəyə aparan rəmzi yolun başlanğıcını tərənnüm edəcək. Giriş portalındakı tağın hündürlüyü 44, eni isə 22 metr olacaq. Tağın üzərində Vətən müharibəsi qəhrəmanlarının adları həkk ediləcək. Tağın üst hissəsindəki ağac elementi böyüyən Azərbaycan, pöhrələnmə, firavanlıq, yeni həyata və Qələbəyə aparan simvolik yol təsəvvürü yaradacaq.

Zəfər Muzeyinin əsas girişində yaradılacaq "Dəmir yumruq" simvolunun üzərində Qələbənin tarixi qeyd ediləcək. "Dəmir yumruq" Zəfərin əsasında dayanan Lider, Xalq, Dövlət və Ordu birliyinin rəmzi olacaq. Muzeyin divarında Birinci və İkinci Qarabağ müharibələrində şəhid olmuş əsgər və zabitlərimizin adları həkk ediləcək.

Parka doğru keçid hissədə 8 Noyabr – Zəfər Gününü əks etdirən memorial abidə ucaldılacaq. Abidə iki güclü əlaməti - Zəfər Gününü və sonsuzluğun rəmzi kimi sarsılmaz birliyi təcəssüm etdirəcək. Memorial abidənin ətrafında Qarabağ xalçalarındakı naxış və bəzək elementlərini əks etdirən yaşıllıq salınacaq.

Zəfər parkında, həmçinin tematik bağça, kaskad tipli şəlalə, Qarabağ yaddaş bağçası, parka ümumi baxış nöqtəsi yaradılacaq. Parkın sonunda Azadlıq Bayrağı Meydanının inşası nəzərdə tutulur. Yaddaş bağçası parkın son hissəsində yaradılacaq. Bu hissəyə enən cığır hündür haşiyəli çiçək və yaşıllıqlarla əhatə olunacaq. Yaddaş bağçasının ətrafında istirahət guşələri və oturacaqlar qoyulacaq. Su hövzəsinin mərkəzində isə Azərbaycan Bayrağı dalğalanacaq. Azadlıq Bayrağı Meydanına gedən yol Vətən müharibəsinin rəmzi kimi 44 bürünc döşəmədən ibarət olacaq.

# MÜBARİZ QURBANLI: XARİCİ ÖLKƏLƏRİN GÜRCÜSTAN AZƏRBAYCANLILARINA TƏSİRLƏRİNİ ÖNLƏMƏK ÜÇÜN MAARİFLƏNDİRMƏ İŞLƏRİNƏ EHTİYAC VAR

Gürcüstan azərbaycanlıları arasında bəzi xarici ölkələrin dövlət-din münasibətləri modelinə uyğun olaraq təsirlərin gücləndirilməsinin qarşısının alınması üçün dini maarifləndirmə işlərinin artırılmasına ehtiyac var.

Bunu Gürcüstanda səfərdə olan Dini Qurumlarla iş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı APA-nın Tbilisi müxbirinə açıqlamasında deyib. O bildirib ki, hazırda azərbaycanlıların yaşadığı bölgələrdəki məscidlərdə fəaliyyət göstərəcək kadrların Gürcüstanda hazırlanmasını həyata keçirəcək kolleclərin yaradılması təklifi irəli sürülür və Azərbaycan tərəfi bu istiqamətdə öz dəstəyini verəcək.

"Gürcüstanın məscidlərində çalışan kadrların hazırlanması da gündəmdə dayanır. Biz bunu Gürcüstanın Dini Məsələlər üzrə Dövlət Agentliyi ilə də müzakirə etmişik. Hazırda Gürcüstan Müsəlmanları İdarəsi (GMİ) rəhbərliyi Gürcüstanda dini kolleclərin yaradılması fikrini irəli sürür. Belə dini kolleclərin yaradılması istiqamətində addımlar atılacaq, biz də öz dəstəyimizi verəcəyik. Gürcüstanda azərbaycanlıların dini ibadətlərini yerinə yetirdikləri məscidlərdə məhz Gürcüstanda yaradılmış kolleclərdə təhsil almış imamların ibadətləri həyata keçirməsi nəzərdə tutulur. Hazırda burada ibadətləri həyata keçirən din xadimlərinin təhsillərinin yüksək səviyyəyə qaldırılması ilə bağlı biz də Azərbaycan İlahiyyat İnstitutu vasitəsilə işlər həyata keçirəcəyik. Bu il İlahiyyat İnstitutunun 5 məzunu vardır ki, onlar diplomlarını alaraq Gürcüstana gəliblər, onların da Gürcüstandakı məscidlərdə çalışması istiqamətində işlər həyata keçirilir. Çox məsələlər kadrlardan asılıdır. Kadrlar, əgər din xadimləri başqa ölkələrin dövlət-din modellərini burada təşviq etmirsə, Gürcüstanla Azərbaycanın dostluq münasibətlərini (zədələməyə çalışmırsa-red.), o cümlədən dindən istifadə edən qrupların təsiri altına düşmürsə, burada hər hansı bir çətinlik olmayacaq. Amma bu cür təsir yaratmaq istəyən qruplar var, onlar müsəlman dünyasında bu cür qruplar yaratmaqla öz modellərini təşviq etmək istəyirlər. Bunun çıxış yolu dini maarifləndirməni gücləndirmək, eyni zamanda kadrları vəhdət prinsipləri və islami dəyərləri olduğu kimi təşviq etmə istiqamətində hazırlamaqdır. Gürcüstanda yaşayan azərbaycanlıların sosial, iqtisadi, humanitar xarakterli məsələləri daim Azərbaycan hökumətinin diqqət mərkəzindədir".

Mübariz Qurbanlı Azərbaycanın öz ərazi bütövlüyü və suverenliyini bərpa etməsi istiqamətində atdığı addımların müəyyən dairələr tərəfindən xristian-İslam qarşıdurması kimi təqdim etmək cəhdlərinə də münasibət bildirib. O qeyd edib ki, Ermənistanın və erməni lobbisinin bu narrativinə onlardan başqa heç kim inanmayıb.

"Din sahəsində hər hansı bir təhdid Azərbaycan ərazisində mümkün deyil. Biz Azərbaycanda geniş işlər həyata keçirmişik. O ki qaldı bəzilərinin Azərbaycanda baş vermiş hadisələrlə, xüsusilə də bizim vaxtilə Ermənistanın işğalı altında olan torpaqlarımıza qayıtmaq istiqamətində apardığımız işlərlə bağlı məsələləri dini müstəviyə keçirmək cəhdləri - bu cəhdlər baş tutmayıb. Heç bir qlobal mərkəz bu münaqişəni, bizim öz torpaqlarımızı azad etmək istiqamətində apardığımız Vətən müharibəsini və antiterror tədbirlərini dini müstəvidə qəbul etməyib və bu barədə danışmır. Bunu danışanlar yalnız ermənilər və erməni lobbisidir ki, onlara da inanan yoxdur. Gürcüstanın özündə faktiki olaraq bunun hər hansı dini bir məsələ olduğunu söyləyən yoxdur. Gürcüstan xristian, biz isə müsəlman ölkəsiyik. Amma Gürcüstanla bizim münasibətlərimiz dinlərarası və dövlətlərarası münasibətlərə bir örnək təşkil edir. O ki qaldı ermənilərə - Bakının mərkəzində erməni kilsəsi saxlanılsa da, işğal vaxtı bizim 67 məscidimizdən 65-i tamamilə dağıdılıb, iki məscid isə yarıdağılmış vəziyyətdə idi və onu təmir edib İran məscidi kimi göstərmək istəyirdilər. Eyni zamanda, ermənilər çoxlu vandalizmə də yol veriblər. İndi torpaqlarımız tam azad edilib, Azərbaycan öz ərazi bütövlüyü və suverenliyini bərpa edib. Bu, cənab Prezident İlham Əliyevin siyasətinin nəticəsi, Azərbaycan Ordusunun qəhrəmanlığıdır. Bu gün müsəlman ölkələri, eləcə də Azərbaycana dost ölkələr və onların liderləri bizim dövlət başçımıza təbriklər göndərirlər. Bu məsələlər göstərdi ki, Ermənistan bu münaqişəni, bu müharibəni, özünün işğalçı hərəkətlərini din pərdəsi altında göstərmək istəsə də, buna nail ola bilmədi. Ermənistanın işğalçı və revanşist dairələrinin bizimlə bağlı apardıqları siyasət həm hərbi, həm ideoloji, həm də siyasi nöqteyi-nəzərdən tam iflasa uğradı", - komitə sədri bildirib.

# MÜBARİZ QURBANLININ RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ GÜRCÜSTANDA SƏFƏRDƏ OLUB

## Nümayəndə heyətinin üzvləri Tbilisidəki Heydər Əliyev Parkında Ulu Öndərin abidəsini ziyarət ediblər



Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlının rəhbərlik etdiyi nümayəndə heyəti 25-28 sentyabr tarixlərində Gürcüstanda səfərdə olub.

Dördgünlük səfərin ilk günündə Azərbaycan nümayəndə heyətinin üzvləri Tbilisidəki Heydər Əliyev Parkında Ulu Öndərin abidəsini ziyarət edib, abidə önünə əklil qoyub, Ümummilli Liderin xatirəsini ehtiramla anıblar.

Azərbaycan nümayəndə heyəti, həmçinin Tbilisidəki Qəhrəmanlar Meydanında Gürcüstanın ərazi bütövlüyü uğrunda həlak olmuş qəhrəmanların xatirəsini yad edib, abidə önünə əklil qoyub.

## Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi ilə Gürcüstanın Dini Məsələlər üzrə Dövlət Agentliyi arasında Anlaşma Memorandumu imzalanıb



Sentyabrın 25-də Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı bu ölkənin Dini Məsələlər üzrə Dövlət Agentliyinin (SARI) sədri Zaza Vaşakmadze ilə görüşüb. Görüşdə iki ölkə arasında dini, mədəni və humanitar sahələrdə əlaqələrin inkişaf perspektivləri müzakirə olunub.

Z.Vaşakmadze deyib ki, bu gün Azərbaycan ilə Gürcüstan arasında əlaqələr bütün sahələrdə, o cümlədən dini sahədə uğurla inkişaf edir. O bu cür səfərlərin önəmini qeyd edib və Mübariz Qurbanlının rəhbərliyi ilə geniş nümayəndə heyətinin səfərinin əlaqələrimizin inkişafına xidmət göstərəcəyini bildirib.

Öz növbəsində DQİDK sədri qeyd edib ki, Azərbaycan dövləti Gürcüstan ilə əlaqələrin bütün istiqamətlərdə inkişafına böyük önəm verir. Bu gün dini qurumlar arasında da əlaqələrin inkişafına və genişlənməsinə ehtiyac var. Düşünürük ki, qarşılıqlı səfərlər və aparılan müzakirələr bu sahədə də əlaqələrin inkişafında mühüm rol oynayır.

Sonra görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb, iki qurum arasında "Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi ilə Gürcüstanın Dini Məsələlər üzrə Dövlət Agentliyi arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu" imzalanıb.

Bildirilib ki, sənəddə iki ölkənin dini qurumları arasında əməkdaşlığın genişləndirilməsi, qarşılıqlı səfərlərin, konfrans, "dəyirmi masa" və seminarların təşkili və sair məsələlər əksini tapıb. İmzalanma mərasimindən sonra hər iki qurum rəhbəri mətbuata açıqlama verib.

Azərbaycanın Gürcüstandakı səfiri Faiq Quliyev görüşdə iştirak edib.

## Nümayəndə heyəti Tbilisidəki Cümə məscidində olub



Sentyabrın 25-də nümayəndə heyəti Gürcüstana səfər çərçivəsində Tbilisidəki Cümə məscidində olub.

DQİDK sədri Mübariz Qurbanlı, Azərbaycanın Gürcüstandakı səfiri Faiq Quliyev və nümayəndə heyətinin üzvləri Gürcüstan Müsəlmanlar İdarəsinin (GMİ) din xadimləri ilə görüşüb, məscidə "Qurani-Kərim" və digər dini kitablar hədiyyə ediblər.

Görüşdə Azərbaycan ilə Gürcüstan arasındakı dostluq münasibətləri, ikitərəfli əlaqələrin inkişaf perspektivləri, bu sahədə dini qurumların rolu və sair məsələlər diqqət mərkəzində olub.

GMİ-nin sədri hacı Ramin İgidov Gürcüstanda dini qurumların, xüsusən də İslam dini icmasının fəaliyyəti barədə ətraflı məlumat verib.

Mübariz Qurbanlı deyib ki, Azərbaycan dövləti Gürcüstanda yaşayan soydaşlarımıza daim diqqət və qayğı göstərir. İslam dini icması da bu qayğıdan kənarda qalmayıb.

Görüşdə hər iki ölkədə mövcud olan dini dözümlülük, tolerantlıq dəyərlərinin qorunması, zərərli dini meyillərə, separatçı qüvvələrə qarşı birgə mübarizə və sair məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Qeyd edək ki, həmin gün Azərbaycan nümayəndə heyətinin üzvləri Tbilisidəki Botanika bağında azərbaycanlıların panteonunu da ziyarət ediblər.

## Nümayəndə heyəti Tbilisidəki Azərbaycan Mədəniyyəti Muzeyində olub



Sentyabrın 26-da nümayəndə heyəti Tbilisidəki M.F.Axundzadə adına Azərbaycan Mədəniyyəti Muzeyini ziyarət edib.

Muzeyin elmi işçisi Leyla Əliyeva nümayəndə heyətinə M.F.Axundzadənin həyat və fəaliyyəti, muzeydə saxlanılan Azərbaycan mədəniyyətinin, incəsənətinin, ədəbiyyatının nümunələri, burada yaradılan digər guşələr, eləcə də muzeydə Azərbaycan mədəniyyətinin, dilinin təbliği, tədrisi ilə bağlı təşkil olunan kurslar barədə ətraflı məlumat verib.

M.Qurbanlı muzeyə "Qurani-Kərim" və digər qiymətli kitablar hədiyyə edib.

davamı səh. 5

# MÜBARİZ QURBANLININ RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ GÜRCÜSTANDA SƏFƏRDƏ OLUB

## *Dövlət Komitəsinin sədri bir sıra görüşlər keçirib*

əvvəli səh. 4



Sentyabrın 26-da Mübariz Qurbanlı Gürcüstan parlamenti sədrinin müavini, Gürcüstan-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Arçil Talakvadze və İnsan Hüquqlarının Müdafiəsi Komitəsinin sədri Mixeil Sarjveladze ilə görüşüb.

Görüşdə iki ölkə arasında dostluq və əməkdaşlıq münasibətləri, dinlərarası və mədəniyyətlərarası dialoqun əhəmiyyəti diqqət mərkəzində olub.

Bildirilib ki, ölkələrimiz arasında həmişə yaxşı dostluq münasibətləri, əməkdaşlıq olub. Dinlərarası və mədəniyyətlərarası dialoq hamı üçün vacibdir.

Tərəflər həmçinin dini azadlıq və insan hüquqlarının müdafiəsinin daha yaxşı standartlarını təmin edəcək istiqamətləri müzakirə ediblər.

Eyni zamanda, DQİDK sədri həmin gün Gürcüstan xarici işlər nazirinin müavini Vladimir Konstantinidi və Diasporla Əlaqələr Departamentinin rəhbəri Muxran Qulaqaşvili ilə görüşüb.

Görüşdə Azərbaycan ilə Gürcüstan arasında əməkdaşlığın bütün sahələrdə inkişaf etdirilməsinin vacibliyi qeyd olunub.



Həmin gün Mübariz Qurbanlı Marneulidə Gürcüstan Müsəlmanları İdarəsinin rəhbərliyi və üzvləri ilə görüşüb. GMİ-nin Marneuli ofisində keçirilən görüşdə şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad olunub. Sonra GMİ-nin Şərqi Gürcüstan üzrə müftisi Etibar Eminov Gürcüstanda dini icmalara yaradılan şəraitdən danışıb, dini ocaqların güzəştli şərtlərlə təbii qazla təmin olunmasına görə Azərbaycan dövlətinə minnətdarlıq edib.

Bildirib ki, 2024-cü ildə Gürcüstanda İslam dinini yüksək səviyyədə öyrədən 3 məktəb açılacaq. Bunlardan biri Batumidə, ikisi isə Marneulidə fəaliyyət göstərəcək. Bu məktəblərin diplomları hər yerdə keçərli olacaq.

GMİ-nin şeyxi hacı Ramin İgidov Azərbaycanda və Gürcüstanda mövcud olan dini dözümlülükdən söz açıb, hər iki ölkənin din xadimləri və dini qurumlarla iş üzrə dövlət təşkilatları arasındakı münasibətləri yüksək qiymətləndirib.

DQİDK-nın sədri M.Qurbanlı görüş iştirakçılarına Azərbaycandakı dini konfessiyaların azad fəaliyyəti barədə məlumat verib, onlara göstərilən diqqət və qayğıdan söz açıb. Bildirib ki, Azərbaycanda din dövlətdən ayrıdır və dövlət dini qurumların işinə müdaxilə etmir. Bununla belə onlara dövlət tərəfindən maddi yardımlar göstərilir.

Bildirilib ki, Gürcüstanda azərbaycanlıların dinlə bağlı tələblərinin yerinə yetirilməsi üçün əlverişli şərait yaradılıb. Komitə də Gürcüstandakı məscid və mədrəsələrin təmiri, kadr hazırlığı və dərsliklərlə təmin olunmasına yardım etməyə hazırdır.

Sonda Azərbaycan İlahiyyat İnstitutunda təhsil almış 5 nəfər Gürcüstan vətəndaşına diplomlar təqdim olunub.

Qeyd edib ki, Azərbaycan İlahiyyat İnstitutunun diplomu ilə dini qurumlarda, eləcə də dövlət qurumlarında çalışmaq mümkündür. Yəni bu diplomları dini mərkəzlərlə yanaşı, digər ölkələrin təhsil nazirlikləri də tanıyır.

Qeyd edək ki, diplomları təqdim olunan məzunlar fəaliyyətlərini Gürcüstanda davam etdirəcəklər.

Görüşdə və diplomların təqdimat mərasimində Azərbaycanın Gürcüstandakı səfiri Faiq Quliyev, Qafqaz Müsəlmanları İdarəsi sədrinin müavini, müfti Salman Musayev iştirak ediblər.

## *“Dinlərarası dialoqda dövlətin rolu” mövzusunda beynəlxalq konfrans*



Sentyabrın 27-də Tbilisidə “Dinlərarası dialoqda dövlətin rolu” mövzusunda beynəlxalq konfrans keçirilib.

Tədbirdə əvvəlcə 27 Sentyabr - Anım Günü münasibətilə Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarından keçmiş qəhrəmanların - şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Gürcüstanın Dini Məsələlər üzrə Dövlət Agentliyinin sədri Zaza Vaşakmadze çıxış edərək şəhidlərimizə Allahdan rəhmət diləyib. O bu cür tədbirlərin təşkilini yüksək qiymətləndirib. Bildirib ki, müasir dövrdə dinlər arasında dostluq əlaqələrinin inkişafı olduqca vacibdir. Bu cür tədbirlər dini ekstremizmə qarşı mübarizədə mühüm rol oynayacaq.




Sonra Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı çıxış edib. Çıxışında ölkəmizdə mövcud olan nümunəvi dövlət-din münasibətləri modelinə toxunan Dövlət Komitəsinin sədri qeyd edib ki, dözümsüzlüyün artması, dindən siyasi məqsədlər üçün sui-istifadə, ksenofobiya, antisemitizm və islamofobiya kimi günümüzün qlobal çağırışları dinlərarası dialoqu hər zaman olduğundan daha da vacib edir. Bu baxımdan dinlərarası dialoqun həm Azərbaycanda, həm də qlobal səviyyədə inkişaf istiqamətlərinin təhlili aktuallıq kəsb edir. Dinlərarası dialoq Azərbaycanda qədim tarixə malikdir və ölkəmizin milli inkişaf strategiyasının tərkib hissələrindən biridir.

M.Qurbanlı Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə qəbul edilmiş Azərbaycan Konstitusiyasında dövlət-din münasibətlərinin tənzimləndiyini xüsusi qeyd edib. Vurğulayıb ki, Azərbaycan Respublikasının Konstitusiyası irqindən, milliyyətindən, dinindən, dilindən və cinsindən asılı olmayaraq hər kəsin hüquq və azadlıqlarının bərabərliyinə təminat verir. Dini qurumlar mənsubiyyətindən asılı olmayaraq, qanunla müəyyən edilmiş qaydada dövlət reyestrində heç bir maneə olmadan qeydiyyata alınır və onlara dövlət tərəfindən hər il maliyyə yardımı verilir. Qeyri-müsəlman əhali ölkə ərazisində azlıq təşkil etsə də, dövlət tərəfindən onlara da müsəlmanlar kimi yüksək diqqət və qayğı göstərilir ki, bu da öz növbəsində Azərbaycanda dinlərarası harmoniyanın ən yüksək səviyyədə özünü göstərməsinin bariz nümunəsidir. M.Qurbanlı vurğulayıb ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə dinlərarası dialoqun inkişaf etdirilməsi Azərbaycanda dövlət siyasətinin əsas istiqamətlərindən birini təşkil edir. Bu dialoqla bağlı Azərbaycanın təşəbbüsü və iştirakı ilə keçirilən tədbirlər dünyada dini ekstremist dairələrin dinlə manipulyasiya cəhdlərinin qarşısının alınmasında böyük əhəmiyyət daşıyır. Azərbaycan dövlətinin siyasətinə görə, dini müxtəliflik cəmiyyətin harmonik inkişafını təmin edən mənəvi dəyərlərdən biridir.

davamı səh. 6

# MÜBARİZ QURBANLININ RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ GÜRCÜSTANDA SƏFƏRDƏ OLUB

əvvəli səh. 5



İki qonşu xalq arasında daim mədəni əlaqələrə də diqqət çəkən Komitə sədri bildirib ki, hazırda yüz minlərlə azərbaycanlı Gürcüstanda yaşayır. Soydaşlarımız dini etiqad azadlığını sərbəst şəkildə tətbiq edir və dini icmalar yaradırlar. Eləcə də Azərbaycanda yaşayan dindar gürcülər dini icmalarda birləşiblər. Respublika ərazisində 4 gürcü pravoslav kilsəsi fəaliyyət göstərir. Həmçinin Dağ yəhudilərindən sonra Azərbaycan ərazisində məskunlaşan ən qədim yəhudi icması Gürcü yəhudiləridir. Onlar gürcü dilində danışan gürcüstanlı yəhudilərdir.

Azərbaycan – Gürcüstan əlaqələrinin çoxəsrlik dostluq, mehriban qonşuluq və qarşılıqlı dəstək kimi möhkəm təməllər üzərində qurulmasına diqqət çəkən ölkəmizin Gürcüstandakı səfiri Faiq Quliyev bu gün strateji tərəfdaşlığın bütün region üçün nümunəvi rolunun daha da artdığını bildirib. Qeyd edib ki, Azərbaycan və Gürcüstan əsrlər boyu rəngarəng mədəni xüsusiyyətlərə məxsus müxtəlif millətlər və dinlərin nümayəndələrinin bir yerdə, qardaşlıq və mehriban qonşuluq şəraitində yaşadığı ölkələrdir. Bakı və Tbilisinin tarixi mərkəzlərində - məscid, kilsə və sinaqoqanın qonşuluqda yerləşməsi, müxtəlif dinlərə aid ayinlərin sərbəst şəkildə yerinə yetirilməsi və dindarlar arasında əsl qardaşlıq ruhunun hökm sürməsi bizim ən dəyərli insani sərvətlərimizdən biridir. Səfir Ulu Öndər Heydər Əliyevin Azərbaycan xalqının kimliyinin və milli məfkurəsinin formalaşmasında, ali dini dəyərlərin dirçəldilməsi və düzgün dərk edilməsi istiqamətində müstəsna rolundan danışaraq, bütün məsələlərə dövlətçilik prizmasından yanaşan Ümummilli Liderin xalqımızın tarixini, dinini, mədəniyyətini və digər mühüm sahələri beynəlxalq səviyyədə təbliğinə diqqətindən bəhs edib. Eyni zamanda, səfir Azərbaycanda dini zəmində münaqişələrin olmaması, insanların sərbəst olaraq öz əqidə formasını seçməsi, dini dözümlülük şəraitinin yaradılmasının məhz Prezident cənab İlham Əliyevin həyata keçirdiyi uğurlu balanslaşdırılmış siyasətin nəticəsi olduğunu diqqətə çatdırıb.

Gürcüstan Baş nazirinin insan hüquqları üzrə müşaviri Niko Tatulaşvili çıxışında insan hüquq və azadlıqlarının qorunması sahəsində görülən işlər barədə danışıb.

Konfransda Azərbaycanın və Gürcüstanın dövlət və hökumət rəsmiləri, Qafqaz Müsəlmanları İdarəsi sədrinin müavini, müfti Salman Musayev, Azərbaycan, Türkiyə, İraq, Qətər, Birləşmiş Ərəb Əmirlikləri və Macarıstanın Gürcüstandakı səfirləri, ABŞ, Qazaxıstan, İtaliya səfirliklərinin məsul əməkdaşları, Avropa İttifaqının və digər beynəlxalq təşkilatların nümayəndələri iştirak ediblər.



## *"Heydər Əliyev 100: Cənubi Qafqazda dinlərarası sülhün və əməkdaşlığın təmin edilməsi"*



Azərbaycanda multikultural dövlət xəttinin təməli Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulub. Hazırda bu siyasət Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bunun nəticəsidir ki, indi Azərbaycan multikultural dəyərlərin təbliği mərkəzinə çevrilib.

Bu fikirlər "Dinlərarası dialoqda dövlətin rolu" adlı beynəlxalq konfrans çərçivəsində keçirilən "Heydər Əliyev 100: Cənubi Qafqazda dinlərarası sülhün və əməkdaşlığın təmin edilməsi" panel müzakirələri zamanı səsləndirilib.



DQİDK-nın Xarici əlaqələr şöbəsinin müdiri Əli Həziyevin moderatorluğu ilə keçən panel iclasda Gürcüstanın Dini Məsələləri üzrə Dövlət Agentliyinin rəsmisi, Gürcüstanın sabiq prezidenti Eduard Şevarnadzenin mətbuat katibi olmuş Nato Oniani, DQİDK sədrinin birinci müavini Səyyad Salahlı, Komitə sədrinin müavini Gündüz İsmayılov, Gürcüstan parlamentinin deputatı Savalan Mirzəyev və başqaları çıxış edərək Cənubi Qafqazda sabitliyin yaranmasında, regionun inkişafında mühüm rol oynayan irimiqyaslı layihələrin həyata keçirilməsində, soydaşlarımızın inteqrasiyasında Ulu Öndər Heydər Əliyevin və Gürcüstanın sabiq Prezidenti Eduard Şevardnadzenin rolundan danışıblar.

Bu iki dahi şəxsiyyət arasında olan dostluq iki ölkənin xalqları arasında münasibətləri daha da möhkəmləndirib. Hazırda isə bu ənənəni Azərbaycan Prezidenti İlham Əliyev və Gürcüstanın Baş naziri İrakli Qaribaşvili uğurla davam etdirirlər.

Bildirilib ki, bu gün Azərbaycanda və Gürcüstanda xeyli sayda dini icma var. Bu icmaların dostluq şəraitində yaşamasında məhz Ulu Öndər Heydər Əliyev və Eduard Şevardnadzenin müstəsna xidmətləri olub.

Sonda Gürcüstanın Dini Məsələlər üzrə Dövlət Agentliyinin sədri Zaza Vaşakmadze və DQİDK-nın sədri Mübariz Qurbanlı çıxış edib, bu cür tədbirlərin əhəmiyyətini yüksək qiymətləndirib, Azərbaycan-Gürcüstan dostluğunun əbədi olacağını vurğulayıblar.

Tədbir Azərbaycanın və Gürcüstanın Dövlət himnlərinin səsləndirilməsi ilə başa çatıb.

davamı səh. 7

# MÜBARİZ QURBANLININ RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ GÜRCÜSTANDA SƏFƏRDƏ OLUB

## *“Azərbaycan dövləti hər zaman Gürcüstanın yanında olub”*

əvvəli səh. 6



Sentyabrın 28-də DQİDK sədri Mübariz Qurbanlı Tbilisidə Qori və Aten Mitropoliti Andria Gvazava ilə də görüşüb.

Görüşdə iki ölkənin dini qurumları arasındakı əməkdaşlıq əlaqələri diqqət mərkəzində olub.

Hər iki ölkənin dini liderləri arasındakı dostluğun bütün sahələrdə münasibətlərimizin inkişafına müsbət təsir göstərdiyi qeyd edilib.

M.Qurbanlı deyib ki, Azərbaycan dövləti hər zaman Gürcüstanın yanında olub, dəstək verib. Ehtiyac yaranarsa, Azərbaycan tərəfi Gürcüstanda olan məscidlərin təmir və bərpasına, eləcə də digər məsələlərdə yardım göstərə bilər.

Andria Gvazava ölkələrimiz arasında münasibətlərin yüksək səviyyəsindən məmnunluğunu ifadə edib, göstərilən dəstəyə görə Azərbaycan dövlətinə minnətdarlığını bildirib.

DQİDK-nın sədri həmin gün Tbilisidəki M.F.Axundzadə adına 73 saylı tam orta məktəbdə olub. Məktəbin direktoru Salman Primməmmədov təhsil ocağının fəaliyyəti, qazandığı uğurlar barədə ətraflı məlumat verib.

M.Qurbanlı məktəbin kollektivi ilə söhbət edib, onlara tədrisdə uğurlar arzulayıb.



## *Azərbaycan İlahiyyat İnstitutu ilə Tbilisi İlahiyyat Akademiyası və Seminariyası arasında Memorandum imzalanıb*



Sentyabrın 28-də Azərbaycan İlahiyyat İnstitutu ilə Tbilisi İlahiyyat Akademiyası və Seminariyası arasında əməkdaşlıq haqqında Memorandum imzalanıb.

Memorandumu DQİDK sədrinin müavini Gündüz İsmayılov və Tbilisi İlahiyyat Akademiyası və Seminariyasının rektoru Georgi Zviadadze imzalayıb.

Bildirilib ki, sənəddə iki təhsil ocağı arasında birgə kadrların, mütəxəssislərin və dərsliklərin hazırlanması, təcrübə mübadiləsi məsələləri nəzərdə tutulub.

## *Gürcüstanda yaşayan soydaşlarımız və şəhid ailələri ilə görüş keçirilib*



Azərbaycan dövləti bütün şəhid ailələrinə, qazilərə diqqət və qayğı göstərir, onların problemləri araşdırılır və həll olunur. Gürcüstanda yaşayan soydaşlarımız və buradakı şəhid ailələri də bu qayğıdan kənarda qalmayıblar. Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin tapşırığına əsasən həmin ailələr hərtərəfli qayğı ilə əhatə olunurlar.

Bu fikirlər sentyabrın 28-də Tbilisidə DQİDK və Azərbaycanın Gürcüstandakı səfirliyinin birgə təşkilatçılığı ilə Gürcüstanın azərbaycanlı icması və şəhid ailələri ilə keçirilən görüşdə səslənib.

Tədbirdə əvvəlcə “Qurani-Kərim”dən ayinlər oxunub, şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Səfir Faiq Quliyev Azərbaycan ilə Gürcüstan arasındakı qədim dostluq əlaqələrindən danışıb, Ulu Öndər Heydər Əliyevin 1996-cı ildə Gürcüstana rəsmi səfərindən sonra ikitərəfli münasibətlərimizin yeni müstəvidə daha da inkişaf etdiyini qeyd edib. Bildirib ki, Prezident İlham Əliyevin məqsədyönlü siyasəti nəticəsində əlaqələrimiz strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib.

Diplomat Azərbaycan dövləti tərəfindən Gürcüstanda həyata keçirilə sosial layihələrdən danışıb, hər il Gürcüstanda 1800-ə yaxın tələbənin təhsil haqqının dövlətimiz tərəfindən ödənildiyini bildirib.

Onun sözlərinə görə, bütün bu işlər Gürcüstanda yaşayan soydaşlarımızın sosial rifahının yaxşılaşdırılması üçün həyata keçirilir.

F.Quliyev qeyd edib ki, 44 günlük Vətən müharibəsi dövründə Gürcüstan azərbaycanlıları bir yumruq kimi Azərbaycan dövlətinin ətrafında birləşdi. Soydaşlarımız tərəfindən həmin dövrdə 150 min dollara yaxın vəsait Azərbaycanın Müdafiə Fonduna köçürülüb. Əlavə olaraq, humanitar yardım kimi Qaraçöp mahalından 660 baş iri və xırdabuynuzlu mal-qara Azərbaycana göndərilib. Həm Birinci, həm də İkinci Qarabağ müharibələrində əslən Gürcüstandan olan azərbaycanlılar misli görülməmiş qəhrəmanlıqlar göstəriblər. Gürcüstan əsilli şəhidlərin adlarının əbədiləşdirilməsi məqsədilə sənədli filmlər və kitablar hazırlanıb, xüsusi poçt markaları buraxılıb, peşəkar rəssamlar tərəfindən şəhidlərin portretləri çəkilərək ailələrə təqdim edilib, bulaqlar tikilib və xatirə lövhələri quraşdırılıb.

Diplomat Azərbaycanın Gürcüstanda İslam dəyərlərinin yaşadılmasına töhfə verdiyini, zərərli ideologiyaların və təsirlərin qarşısının alınmasına dəstək verdiyini diqqətə çatdırıb. Qeyd edib ki, bu vaxtadək Heydər Əliyev Fondu tərəfindən Kvemo Kartlidəki məscidlər təmir-bərpa edilib, həmçinin məscidlər SOCAR tərəfindən qazla təmin edilib. Səfir azərbaycanlıların Gürcüstanın suverenliyinin qorunmasında da müstəsna xidmətləri olduğunu diqqətə çatdırıb.

DQİDK-nın sədri Mübariz Qurbanlı çıxışında ölkələrimiz arasında əlaqələrin inkişafında bir sıra qurumlar kimi, dini qurumların da rolunu xüsusi qeyd edib.

Onun sözlərinə görə, bəzi ekstremist qüvvələr dini icmalar və təriqətlər vasitəsilə ölkələrimiz arasında münasibətləri pozmağa çalışırlar. O, bunun qarşısını almaq üçün dini maarifləndirmə işlərinin artırılmasının vacibliyini qeyd edib.

Bildirib ki, hazırda azərbaycanlıların yaşadığı bölgələrdəki məscidlərdə fəaliyyət göstərəcək kadrların Gürcüstanda hazırlanmasını həyata keçirəcək kolleclərin yaradılması təklifi irəli sürülür və Azərbaycan tərəfi bu istiqamətdə öz dəstəyini verəcək.

Gürcüstanda azərbaycanlıların dini ibadətlərini yerinə yetirdikləri məscidlərdə məhz Gürcüstanda yaradılmış kolleclərdə təhsil almış imamların ibadətləri həyata keçirməsi nəzərdə tutulur. Hazırda burada ibadətləri həyata keçirən din xadimlərinin təhsillərinin yüksək səviyyəyə qaldırılması ilə bağlı biz də Azərbaycan İlahiyyat İnstitutu vasitəsilə işlər həyata keçirəcəyik.

Sonra Qafqaz Müsəlmanları İdarəsi sədrinin müavini, müfti Salman Musayev, Gürcüstan Müsəlmanları İdarəsinin şeyxi Hacı Ramin İgidov, şəhidlərimizin həyatından bəhs edən “Ölməzlər” kitabının müəllifi, Gürcüstan Yazıçılar Birliyinin üzvü Rafiq Hümbət və başqaları çıxış edib, ölkələrimiz arasında münasibətlərdən danışıblar.

Şəhid ailələri adından çıxış edən Xocalı soyqırımı şəhidlərindən olan Gülnaz Çıldırlı göstərilən diqqət və qayğıya görə, Azərbaycan dövlətinə minnətdarlıq edib.

Qeyd edək ki, görüşün keçirildiyi binada Azərbaycanın Şuşada Qarabağ bölgələrindəki tarixi və dini abidələrin fotolarından, eləcə də Ulu Öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin din, tərəfdaşlıq, soydaşlarımız barədə tarixi fikirlərindən, kəlamlarından ibarət kitabların sərgisi təşkil olunub.

# MÜBARİZ QURBANLI: XARİCİ ÖLKƏLƏRİN GÜRCÜSTAN AZƏRBAYCANLILARINA TƏSİRLƏRİNİ ÖNLƏMƏK ÜÇÜN MAARİFLƏNDİRMƏ İŞLƏRİNƏ EHTİYAC VAR

Gürcüstan azərbaycanlıları arasında bəzi xarici ölkələrin dövlət-din münasibətləri modelinə uyğun olaraq təsirlərin gücləndirilməsinin qarşısının alınması üçün dini maarifləndirmə işlərinin artırılmasına ehtiyac var.

Bunu Gürcüstanda səfərdə olan Dini Qurumlarla iş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı APA-nın Tbilisi müxbirinə açıqlamasında deyib. O bildirib ki, hazırda azərbaycanlıların yaşadığı bölgələrdəki məscidlərdə fəaliyyət göstərəcək kadrların Gürcüstanda hazırlanmasını həyata keçirəcək kolleclərin yaradılması təklifi irəli sürülür və Azərbaycan tərəfi bu istiqamətdə öz dəstəyini verəcək.

"Gürcüstanın məscidlərində çalışan kadrların hazırlanması da gündəmdə dayanır. Biz bunu Gürcüstanın Dini Məsələlər üzrə Dövlət Agentliyi ilə də müzakirə etmişik. Hazırda Gürcüstan Müsəlmanları İdarəsi (GMİ) rəhbərliyi Gürcüstanda dini kolleclərin yaradılması fikrini irəli sürür. Belə dini kolleclərin yaradılması istiqamətində addımlar atılacaq, biz də öz dəstəyimizi verəcəyik. Gürcüstanda azərbaycanlıların dini ibadətlərini yerinə yetirdikləri məscidlərdə məhz Gürcüstanda yaradılmış kolleclərdə təhsil almış imamların ibadətləri həyata keçirməsi nəzərdə tutulur. Hazırda burada ibadətləri həyata keçirən din xadimlərinin təhsillərinin yüksək səviyyəyə qaldırılması ilə bağlı biz də Azərbaycan İlahiyyat İnstitutu vasitəsilə işlər həyata keçirəcəyik. Bu il İlahiyyat İnstitutunun 5 məzunu vardır ki, onlar diplomlarını alaraq Gürcüstana gəliblər, onların da Gürcüstandakı məscidlərdə çalışması istiqamətində işlər həyata keçirilir. Çox məsələlər kadrlardan asılıdır. Kadrlar, əgər din xadimləri başqa ölkələrin dövlət-din modellərini burada təşviq etmirsə, Gürcüstanla Azərbaycanın dostluq münasibətlərini (zədələməyə çalışmırsa-red.), o cümlədən dindən istifadə edən qrupların təsiri altına düşmürsə, burada hər hansı bir çətinlik olmayacaq. Amma bu cür təsir yaratmaq istəyən qruplar var, onlar müsəlman dünyasında bu cür qruplar yaratmaqla öz modellərini təşviq etmək istəyirlər. Bunun çıxış yolu dini maarifləndirməni gücləndirmək, eyni zamanda kadrları vəhdət prinsipləri və islami dəyərləri olduğu kimi təşviq etmə istiqamətində hazırlamaqdır. Gürcüstanda yaşayan azərbaycanlıların sosial, iqtisadi, humanitar xarakterli məsələləri daim Azərbaycan hökumətinin diqqət mərkəzindədir".

Mübariz Qurbanlı Azərbaycanın öz ərazi bütövlüyü və suverenliyini bərpa etməsi istiqamətində atdığı addımların müəyyən dairələr tərəfindən xristian-İslam qarşıdurması kimi təqdim etmək cəhdlərinə də münasibət bildirib. O qeyd edib ki, Ermənistanın və erməni lobbisinin bu narrativinə onlardan başqa heç kim inanmayıb.

"Din sahəsində hər hansı bir təhdid Azərbaycan ərazisində mümkün deyil. Biz Azərbaycanda geniş işlər həyata keçirmişik. O ki qaldı bəzilərinin Azərbaycanda baş vermiş hadisələrlə, xüsusilə də bizim vaxtilə Ermənistanın işğalı altında olan torpaqlarımıza qayıtmaq istiqamətində apardığımız işlərlə bağlı məsələləri dini müstəviyə keçirmək cəhdləri - bu cəhdlər baş tutmayıb. Heç bir qlobal mərkəz bu münaqişəni, bizim öz torpaqlarımızı azad etmək istiqamətində apardığımız Vətən müharibəsini və antiterror tədbirlərini dini müstəvidə qəbul etməyib və bu barədə danışmır. Bunu danışanlar yalnız ermənilər və erməni lobbisidir ki, onlara da inanan yoxdur. Gürcüstanın özündə faktiki olaraq bunun hər hansı dini bir məsələ olduğunu söyləyən yoxdur. Gürcüstan xristian, biz isə müsəlman ölkəsiyik. Amma Gürcüstanla bizim münasibətlərimiz dinlərarası və dövlətlərarası münasibətlərə bir örnək təşkil edir. O ki qaldı ermənilərə - Bakının mərkəzində erməni kilsəsi saxlanılsa da, işğal vaxtı bizim 67 məscidimizdən 65-i tamamilə dağıdılıb, iki məscid isə yarıdağılmış vəziyyətdə idi və onu təmir edib İran məscidi kimi göstərmək istəyirdilər. Eyni zamanda, ermənilər çoxlu vandalizmə də yol veriblər. İndi torpaqlarımız tam azad edilib, Azərbaycan öz ərazi bütövlüyü və suverenliyini bərpa edib. Bu, cənab Prezident İlham Əliyevin siyasətinin nəticəsi, Azərbaycan Ordusunun qəhrəmanlığıdır. Bu gün müsəlman ölkələri, eləcə də Azərbaycana dost ölkələr və onların liderləri bizim dövlət başçımıza təbriklər göndərirlər. Bu məsələlər göstərdi ki, Ermənistan bu münaqişəni, bu müharibəni, özünün işğalçı hərəkətlərini din pərdəsi altında göstərmək istəsə də, buna nail ola bilmədi. Ermənistanın işğalçı və revanşist dairələrinin bizimlə bağlı apardıqları siyasət həm hərbi, həm ideoloji, həm də siyasi nöqteyi-nəzərdən tam iflasa uğradı", - komitə sədri bildirib.

# DÖVLƏT KOMİTƏSİNİN SƏDRİ UCARDA VƏTƏNDAŞLARI QƏBUL EDİB

Mərkəzi icra hakimiyyəti orqanları və digər idarəetmə qurumlarının rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlı sentyabrın 19-da Ucar, Kürdəmir, Göyçay və Zərdab rayonlarından olan vətəndaşları qəbul edib.

Qəbuldan əvvəl DQİDK sədri Mübariz Qurbanlı və Ucar Rayon İcra Hakimiyyətinin başçısı Mənsur Məmmədov Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edib, əziz xatirəsinə dərin ehtiramlarını bildiriblər.

Qəbula gələn vətəndaşlar dini icmaların kitablarla təmin edilməsi, dini təhsil, dini maarifləndirmə işinin genişləndirilməsi, habelə digər məsələlərlə bağlı müraciətlər ediblər.

Dövlət Komitəsinin aidiyyəti struktur bölmə rəhbərinin iştirakı ilə keçirilmiş qəbulda vətəndaşların müraciətləri diqqətlə dinlənilib, ərizələri qəbul edilərək müvafiq tədbirlərin görülməsi ilə bağlı tapşırıqlar verilib.



# DÖVLƏT KOMİTƏSİNDƏ TƏCRÜBƏ KEÇMİŞ KÖNÜLLÜLƏRƏ SERTİFİKATLAR TƏQDİM OLUNUB







Sentyabrın 22-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində (DQİDK) təcrübə keçmiş könüllülərə sertifikatlar təqdim olunub.

Görüş zamanı DQİDK-nın Aparat rəhbəri Amil Cavadov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü ilə başladılan könüllülük hərəkatının dövlətimizin həyata keçirdiyi gənclər siyasətinin mühüm istiqamətlərindən biri olduğuna diqqət çəkərək ölkədə könüllülük hərəkatının geniş vüsət aldığı dönəmdə Dövlət Komitəsinin könüllülərinin də bu prosesin aktiv üzvlərindən olduğunu qeyd edib. Hazırda respublika ərazisində keçirilən bütün beynəlxalq tədbirlərdə, eləcə də dövlət orqanlarının gündəlik fəaliyyətində könüllülərin önəmli xidmətlərinin olduğunu vurğulayan Komitə rəsmisi bildirib ki, DQİDK könüllüləri ötən müddət ərzində bir sıra dövlət əhəmiyyətli tədbirlərdə xüsusi fəallıqları ilə seçiliblər.

Təlimlər və əldə etdikləri təcrübələr barədə öz təəssüratlarını bölüşən könüllülər bildiriblər ki, könüllülük hərəkatı onların bilik və bacarıqlarının inkişafında, mütəxəssis kimi formalaşmasında mühüm rol oynayır.

Təcrübə kursunu müvəffəqiyyətlə başa vurmuş gənclərə təbriklərini çatdıran Amil Cavadov onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

Daha sonra könüllülərə sertifikatlar təqdim edilib.

# «MÜASİR ÇAĞIRIŞLAR VƏ QARŞIDA DURAN ƏSAS HƏDƏFLƏR»



6-8 sentyabr tarixlərində Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) təşkilatçılığı ilə Tovuz rayonunda "Müasir çağırışlar və qarşıda duran əsas hədəflər" mövzusunda üçgünlük regional konfrans keçirilib.

Konfransın ilk günü əvvəlcə Ulu Öndər Heydər Əliyevin Tovuz şəhərindəki abidəsi ziyarət edilib, önünə gül dəstəsi düzülüb.

Tədbir Dövlət Himninin səsləndirilməsi, ölkəmizin ərazi bütövlüyünün qorunması və bərpası uğrunda şəhid olanların ruhlarının bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb.

Konfransı giriş sözü ilə açan Tovuz Rayon İcra Hakimiyyəti (RİH) başçısının birinci müavini Rəşad Zeynalov bildirib ki, Azərbaycan dövlət-din münasibətlərinin inkişafı baxımından nümunəvi ölkədir. Əsasını Ulu Öndər Heydər Əliyevin qoyduğu və Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən dövlət-din münasibətləri modeli cəmiyyətin sağlam inkişafı, milli-mənəvi dəyərlərin qorunması, insanların dini etiqadına olan hörmət və ehtiram baxımından əvəzolunmaz xarakter daşıyır.



Daha sonra çıxış edən DQİDK-nın sədr müavini Səyavuş Heydərov vurğulayıb ki, dünyada cərəyan edən, sülh və beynəlxalq təhlükəsizlik üçün təhdid xarakteri daşıyan geosiyasi proseslərin dinamik inkişafı fonunda ictimai-siyasi həyatda din amili, dini təhlükəsizlik problemləri daha da aktuallaşır: "Təəssüf ki, dəyişən dünya nizamında beynəlxalq aləmdə atılan bütün addımlar bəşəriyyətin və cəmiyyətin qorunması, eləcə də müdafiə olunması istiqamətində olsa da, dini ekstremizm, terrorizm təhlükəsi səngimir". Sədr müavini qeyd edib ki, dini təhlükəsizlik təmin olunmadan milli təhlükəsizliyi təmin etmək qeyri-mümkündür. Dini təhlükəsizliyin təminatında dini maarifləndirmənin müstəsna rolu olduğunu diqqətə çatdıran S.Heydərov bildirib ki, maarifləndirmə istənilən bütün neqativ hallara qarşı mübarizədə ən effektiv vasitədir.

Dövlət Komitəsinin sədr müavini çıxışında vurğulayıb ki, möhtərəm Prezidentimiz cənab İlham Əliyevin din sahəsi üzrə olduqca uğurlu, gələcəyə hesablanmış, uzaqgörən siyasəti, eləcə də Birinci vitse-prezident Mehriban xanım Əliyevanın fədakar əməyi sayəsində Azərbaycanda sınaqdan çıxmış multikulturalizm və tolerantlıq, o cümlədən birgəyaşayış modeli qeyd olunan təhlükəli tendensiyaya qarşı ən effektiv vasitə hesab edilir. Bu isə ictimai-siyasi sabitliyin təminatında, vətəndaşların dini etiqad azadlığının qorunmasında, tolerantlıq ənənələrinin inkişafında, xüsusilə indiki dövrdə, dini zəmində ziddiyyətlərin dövlətlər və xalqlar arasında hərbi qarşıdurmalara transformasiyası şəraitində olduqca əhəmiyyətlidir.

YAP Tovuz rayon təşkilatının sədri Nihad Pənahov, Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) bölgə qazısı İlham Süleymanov çıxışlarında dövlətin dinə və din xadimlərinə qayğısından, ölkəmizdəki sabit dini durumdan bəhs ediblər.

Tədbir çərçivəsində kitab sərgisi keçirilib, sənədli film nümayiş olunub.

Konfransın ikinci günündə DQİDK və Tovuz RİH-in rəsmi şəxsləri, rayonda fəaliyyət göstərən qurumların rəhbərləri və ictimaiyyət nümayəndələri iştirak ediblər.

DQİDK sədrinin birinci müavini Səyyad Salahlı çıxışı zamanı dövlətimiz ilə dini icmalar arasında münasibətlərin yüksək səviyyədə qurulmasını xüsusilə vurğulayaraq qeyd edib ki, ölkə rəhbərliyinin din sahəsində həyata keçirdiyi uğurlu siyasət nəticəsində dövlət-din münasibətləri beynəlxalq hüquq normalarına uyğun tənzimlənir, mövcud tolerantlıq mühiti daha da inkişaf etdirilir. Bildirib ki, dinə və dindarlara qayğı, dini ibadət yerlərinin tikintisi, təmiri, tarixi-dini abidələrimizin, o cümlədən məscid, kilsə, sinaqoqların bərpa və yenidənqurulması dövlətimizin bu sahədəki siyasətinin tərkib hissələrindəndir. Sivilizasiyalar, dinlər arasında faydalı əməkdaşlığın, qarşılıqlı etimadın yaradılması istiqamətində dövlətimizin siyasətinə də toxunan S.Salahlı Azərbaycanın müəllifi olduğu və dünyaya ixrac etdiyi dini dözümlülük modelinə diqqət çəkib. Bildirib ki, Ümummilli Lider Heydər Əliyevin uzaqgörənliklə əsasını qoyduğu və bu gün Prezident İlham Əliyevin uğurla davam etdirdiyi dövlət-din münasibətləri sağlam prinsiplər üzərində qurulub. Ölkəmizdə ənənə halını almış tolerantlıq və multikultural mühit dünyada ən müasir və mütərəqqi cəmiyyət modeli kimi qəbul edilib.

Tovuz RİH başçısının birinci müavini Rəşad Zeynalov Azərbaycanda müxtəlif etnosların və dinlərin nümayəndələrinin mehriban qonşuluq şəraitində birgə yaşamasından danışıb. Vurğulayıb ki, cəmiyyətdə mövcud olan dini dözümlülük nümunəsi ölkəmizin öz multikulturalizm və tolerantlıq modelini formalaşdıraraq dünyaya ixrac etməsinə rəvac verib. Rayondakı mövcud dini durum barədə danışan R.Zeynalov milli-mənəvi dəyərlərimizə yad dini ideologiyaların zərərli təbliğatının qarşısının alınması, Azərbaycandakı tolerantlıq mühitinin qorunub saxlanması istiqamətində Komitənin həyata keçirdiyi tədbirləri yüksək dəyərləndirib.

Qazax-Tovuz Regional Gənclər və İdman İdarəsinin Tovuz rayonu üzrə gənclər və idman sektorunun baş məsləhətçisi İmkan Tağıyev və Sovet Kazımov adına Qovlar şəhər tam orta məktəbinin müəllimi Ramiz Abbasov Ulu Öndər Heydər Əliyevin dövlət-din münasibətləri sahəsində qoyduğu siyasətin möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsindən, mövcud tolerant mühitin qorunması və təbliği, dini radikalizm meyillərinin qarşısının alınması istiqamətində görülən işlərdən söhbət açaraq, belə tədbirlərin keçirilməsinin maarifləndirilmə baxımından mühüm əhəmiyyət daşıdığını bildiriblər.

Üçgünlük regional konfrans sentyabrın 8-də öz işini davam etdirib.

DQİDK, Tovuz RİH və ictimaiyyət nümayəndələri-



nin iştirak etdiyi tədbiri giriş sözü ilə açan DQİDK-nın İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Yaqut Əliyeva vurğulayıb ki, çoxmillətli və çoxkonfessiyalı ölkə olan Azərbaycanda həmişə müxtəlif millətlərin, etnik qrupların, dini azlıqların birgə yanaşı yaşaması təmin edilib. Qarşılıqlı etimada və hörmətə əsaslandığı üçün bu istiqamətdə həyata keçirilən tədbirlər nəticəsində milli və ya dini zəmində ayrı-seçkilik mövcud deyil. Konfransın əhəmiyyətinə diqqət çəkərək zərərli dini meyillərin for-



malaşdırdığı təhdidlər və onların multikultural cəmiyyətə təsiri barədə də danışan şöbə müdiri aparılan maarifləndirmədə cəmiyyətimizin əsas sütunu olan qadınların da əhatə olunmasının önəminə toxunub. Qeyd edib ki, dini maarifçilik işinin həyata keçirilməsi, xurafatla mübarizə, eyni zamanda cəmiyyətimizi narahat edən digər məsələlərin aradan qaldırılmasında qadınların özünəməxsus rolu vardır. Y.Əliyeva, həmçinin, sadalanan problemlərin həlli istiqamətində görülən işlər və çıxış yolları barədə fikirlərini bölüşüb.

Tovuz Rayon Qeydiyyat şöbəsinin rəisi Svetlana Verdiyeva, Qazax-Tovuz Regional Təhsil İdarəsinin sektor müdiri Elmira Mürşüdlü konfransın keçirilməsinin əhəmiyyətindən bəhs edərək mövzu ilə bağlı fikirlərini diqqətə çatdırıblar. Bildirilib ki, ölkəmiz unikal tarixi-mədəni şəraitə, dini sahənin özünəməxsus xüsusiyyətlərinə, demokratik prinsiplərə əsaslanan dövlət-din münasibətlərinə malikdir və bütün bunlar dünya birliyi tərəfindən yüksək qiymətləndirilir. Azərbaycan dövlətinin dinlə bağlı siyasəti cəmiyyətdə dini müxtəlifliyi, vicdan və dini etiqad azadlığını təmin edən fəaliyyət sistemidir.

Sonda DQİDK-nın sifarişi ilə çəkilmiş "Müasir çağırışlar və qarşıda duran əsas hədəflər" mövzusunda videoçarx nümayiş etdirilib. Konfrans işini müzakirələrlə yekunlaşdırıb.

***

Eyni mövzuda növbəti tədbir 13-15 sentyabr tarixlərində Şəki şəhərində keçirilib.

Konfransın ilk günü əvvəlcə Ulu Öndər Heydər Əliyevin Şəki şəhərindəki abidəsi ziyarət edilib, önünə gül dəstəsi düzülüb.

Tədbir Dövlət Himninin səsləndirilməsi, ölkəmizin ərazi bütövlüyünün qorunması və bərpası uğrunda şəhid olanların ruhlarının bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb.

DQİDK-nın sifarişi ilə çəkilmiş "Müasir çağırışlar və qarşıda duran əsas hədəflər" mövzusunda videoçarxın nümayişindən sonra tədbiri giriş sözü ilə açan Şəki Şəhər İcra Hakimiyyətinin (ŞİH) başçısı Elxan Usubov regional konfransın əhəmiyyətinə diqqət çəkərək bildirib ki, dövlət-din münasibətləri hər zaman prioritet sahə kimi ölkə rəhbərliyinin diqqət mərkəzində olmaqla yanaşı, həm də bu istiqamətə xüsusi qayğı göstərilir. Qeyd edib ki, ölkə ərazisində yerləşən dini abidələrin qorunması, bərpası və yenidən tikilərək inanc sahiblərinin ixtiyarına verilməsi, dövlət-din münasibətlərinin hüquqi cəhətdən tənzimlənməsi və digər sahələrdə görülən işlər – dini təhsilin keyfiyyət və kəmiyyətcə artırılması istiqamətində verilən qərarlar, sərəncamlar, dövlətin bu sahədə atdığı addımlar, keçirdiyi tədbirlər və qəbul etdiyi qərarlar yüksək qiymətə layiqdir.

DQİDK-nın sədr müavini Sahib Nağıyev çıxışında hazırda qloballaşma prosesinin sürətləndiyi, xarici təsirlərin artdığı mürəkkəb beynəlxalq şəraitdə dinlərarası qarşılıqlı anlaşma, hörmət prinsiplərinin qorunub saxlanılması və dindən siyasi məqsədlər naminə istifadənin qarşısının alınması üçün sağlam dini maarifləndirmənin aparılmasının xüsusi əhəmiyyət kəsb etdiyini vurğulayıb. Bildirib ki, Azərbaycan hökuməti radikallıq və ekstremizm meyillərinin qarşısının alınması istiqamətində səylərini daha da gücləndirir.

Eyni zamanda sədr müavini qeyd edib ki, müasir dövrdə dünyanın müxtəlif bölgələrində baş verən hadisələr mədəni müxtəlifliyi qəbul etməyən, digər din və mədəniyyətlərin nümayəndələrinin adət-ənələrinə, həyat tərzinə, əqidə və düşüncəsinə hörmətlə yanaşılmayan cəmiyyətlərdə davamlı sabitliyə və inkişafa nail

davamı səh. 10

# «MÜASİR ÇAĞIRIŞLAR VƏ QARŞIDA DURAN ƏSAS HƏDƏFLƏR»



əvvəli səh. 9

olmağın qeyri-mümkün olduğunu göstərir. Bu səpkidə qarşıdurma və münaqişələrin baş verməməsi üçün insanlarda fərqli din mənsublarına hörmət xüsusiyyətləri gücləndirilməlidir. Bu ənənənin qorunması məqsədilə Azərbaycanda bir çox əhəmiyyətli tədbirlər həyata keçirilir.

Daxili İşlər Nazirliyinin məsul əməkdaşı Oqtay Tağıyev isə dini radikalizm və onun fəsadlarından, dövlətimizin hüquqi-demokratik əsaslarına qarşı pozuculuq fəaliyyətlərinin qarşısının alınmasına yönələn tədbirlərdən danışıb.

YAP Şəki rayon təşkilatının sədr müavini Ziya Vəliyev, QMİ-nin Şəki-Oğuz bölgəsi üzrə qazısı Kamran Məmmədov dövlətin dinə və dindarlara qayğısından bəhs edib, bu cür konfransların keçirilməsinin zəruriliyini diqqətə çatdırıblar.

Regional konfrans sentyabrın 14-də öz işini davam etdirib.

Din xadimləri, dini icma sədrləri, ziyalılar, ağsaqqallar, dindarlar, eləcə də gənclərin iştirak etdiyi tədbiri giriş sözü ilə açan Şəki ŞİH başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini - dini qurumlarla işin təşkilatçısı Sadiq Yusifov dövlətdin münasibətləri, dini icmaların fəaliyyəti istiqamətində görülən işlər barədə ətraflı məlumat verib. Vurğulayıb ki, ölkəmizdə insan hüquq və azadlıqlarının bərqərar olmasına, milli-mənəvi dəyərlərimizin qorunmasına və tolerantlıq ənənələrinin möhkəmləndirilməsinə böyük önəm verilir.

Daha sonra çıxış edən Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlı bildirib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdəki tolerantlıq dinə münasibətdə dövlət siyasəti kimi səciyyələndirilir. Çağdaş dünyamızın olduqca gərgin günlər yaşadığını diqqətə çatdıran S.Salahlının sözlərinə görə, qlobal siyasi və hərbi kataklizmlərə baxmayaraq, Azərbaycan "sabitlik adası" olaraq qalmaqdadır.

Respublikamızda mövcud olan milli və dini həmrəyliyə də toxunan komitə rəsmisi əlavə edib ki, ölkəmiz beynəlxalq aləmdə ictimai-siyasi sabitlik şəraitində dini tolerantlığın və multikultural dəyərlərin inkişaf etdiyi, bütün dini konfessiyalara bərabər münasibətin göstərildiyi, dini etiqad azadlığının yüksək səviyyədə təmin olunduğu, dini-mədəni müxtəlifliyin qorunduğu dövlət kimi tanınır.

"İctimai-siyasi, dini sabitliyin qorunub saxlanmasında, həmçinin dini və milli tolerantlıq, məzhəblərarası münasibətlərin daha da inkişaf etdirilməsi, mənəvi dəyərlərimizin təbliği sahəsində din xadimlərinin üzərinə böyük vəzifələr düşür", - deyə DQİDK sədrinin birinci müavini əlavə edib.

Şəki-Zaqatala Regional Təhsil İdarəsinin Şəki sektorunun müdiri Zamiq Cəbiyev, Şəhər Ağsaqqallar Şurasının üzvü Vaqif Əhmədov isə çıxışlarında diqqətə çatdırıblar ki, Azərbaycanda Ulu Öndər Heydər Əliyevin siyasəti nəticəsində xalqımızın keçmişinə, milli adət-ənənələrinə, dininə dövlət səviyyəsində qayğı göstərilməyə başlanılıb, bu dəyişikliyin fonunda ölkədə etiqad, inanc azadlığı bərqərar olub.

Regional konfrans sentyabrın 15-də öz işini davam etdirib.

DQİDK, Şəki ŞİH, Şəki-Zaqatala Regional Gənclər və İdman İdarəsinin Şəki şəhəri üzrə gənclər və idman sektorunun rəsmi şəxslərinin, eləcə də ictimaiyyət nümayəndələrinin iştirak etdikləri tədbirdə çıxış edən Şəki ŞİH-in İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini-dini qurumlarla işin təşkilatçısı Sadiq Yusifov Dövlət Komitəsinin həyata keçirdiyi maarifləndirmə tədbirlərinin önəmini vurğulayaraq bu prosesin daha da genişləndirilməsinin əhəmiyyətindən danışıb. Bildirib ki, dini fanatizm, radikalizm, xurafat və cəmiyyəti deqredasiyaya uğradan bu kimi digər halların qarşısının alınmasında ən mühüm addımlardan biri ölkənin fərqli regionlarında aparılan maarifləndirmə tədbirləridir.

DQİDK sədrinin köməkçisi Rəhim Rəhimli əvvəlcə müasir çağırışların fonunda milli-mənəvi dəyərlərimizi qorumağın əhəmiyyətinə diqqəti çəkib. Bildirib ki, milli-mənəvi dəyərlərimizə, dini və etnik mənsubiyyətindən asılı olmayaraq xalqımızı vahid amal ətrafında birləşdirən vətənpərvərlik kimi ideyalara sadiq olmalı, xalqımızın əsrlərboyu qoruyub-saxladığı ənənələrin qloballaşma prosesi ilə qarşı-qarşıya qoyulmasına yol verməməli, əksinə, həmin dəyərlərin daha geniş arealda



təbliği üçün fürsət yaratmalıyıq. Ölkənin gələcəyi olan gənc nəslin Vətənə, xalqa, dövlətə bağlılıq ruhunda formalaşmasında Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu azərbaycançılıq ideologiyasının xüsusi önəm kəsb etdiyini bildirən R.Rəhimli, 44 günlük Vətən müharibəsində müxtəlif dini konfessiyalara məxsus gənclərin Ali Baş Komandan Prezident İlham Əliyevin ətrafında vahid amal uğrunda dəmir yumruq kimi birləşdiyini xatırladıb.

Komitə sədrinin köməkçisi dini radikalizm, fanatizm, xurafat kimi zərərli dini təsirlərlə mübarizə məqsədilə görülən işlərə də toxunub. Vurğulayıb ki, bu istiqamətdə dövlət orqanları tərəfindən aparılan qabaqlayıcı tədbirlərlə yanaşı, hər bir vətəndaşın milli maraqların və mənafelərin keşiyində ayıq-sayıq durması, qeyri-ənənəvi dini cərəyanlar, radikal dini qruplaşmaların zərərli təbliğatına qarşı fəal şəkildə mübarizə aparması üçün maarifləndirmə işlərinin miqyasının genişləndirilməsi olduqca əhəmiyyətlidir. O əlavə edib ki, yetişməkdə olan gənclərin yad təsirlərdən qorunması məqsədilə aparılan geniş maarifləndirmə tədbirləri həm də onların vətənpərvərlik ruhunda tərbiyəsində müstəsna rol oynayır.

Şəki-Zaqatala Regional Gənclər və İdman İdarəsinin Şəki şəhəri üzrə gənclər və idman sektorunun nümayəndəsi Səbahət Bağırova və "Qarabağ Müharibəsi Əlilləri, Veteranları və şəhid ailələri" İctimai Birliyi Şəki rayon filialının sədri Məmmədnuru Əzizov mövcud tolerant mühitin qorunması və təbliği, dini radikalizm meyillərinin qarşısının alınması istiqamətində görülən işlərdən, belə tədbirlərin keçirilməsinin maarifləndirilmə baxımından mühüm əhəmiyyət daşımasından danışıblar.

Üçgünlük regional konfrans müzakirələrlə yekunlaşıb.

## DÖVLƏT KOMİTƏSİNİN KOLLEKTİVİ BAKIDA İNŞASI DAVAM ETDİRİLƏN ZƏFƏR PARKINI ZİYARƏT EDİB





Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin kollektivi 27 Sentyabr – Anım Günü münasibətilə Bakıda inşası davam etdirilən Zəfər Parkını ziyarət edib.

44 günlük Vətən müharibəsində respublikamızın ərazi bütövlüyünün qorunması, bərpası və torpaqlarımızın işğaldan azad edilməsi uğrunda gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalan qəhrəman Vətən övladlarının xatirəsini ehtiramla yad ediblər, xatirə daşının önünə gül dəstələri qoyublar.

Qeyd edək ki, Prezident İlham Əliyevin 2020-ci il 2 dekabr tarixli Sərəncamına əsasən 27 Sentyabr - Anım Günü kimi qeyd edilir. Bu gün xalqımız ölkəmizin ərazi bütövlüyü uğrunda döyüşlərdə şəhidlik zirvəsinə ucalmış əsgər və zabitlərimizi, bütün şəhidlərimizi dərin ehtiramla yad edir.

## ŞUŞA ŞƏHƏRİ YUXARI GÖVHƏR AĞA MƏSCİDİNƏ İMAM TƏYİN EDİLİB



Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlının müvafiq əmri ilə Mirəbdullah Məzahir oğlu Həsənli Şuşa rayonunun imamı vəzifəsindən Şuşa şəhəri Yuxarı Gövhər Ağa məscidinin imamı vəzifəsinə rotasiya edilib.

Mirəbdullah Məzahir oğlu Həsənli 11 mart 1976-cı ildə Şuşa şəhərində anadan olub. İbtidai dini təhsilini babası ruhani Seyid Sadıqdan alıb. 1992-ci ildə Nəcəf bəy Vəzirov adına Şuşa şəhəri 2 nömrəli orta məktəbi bitirib. Həmin il Bakı İslam Universitetinə qəbul olub. 1996-cı ildə bu Universiteti axund, şəriət müəllimi ixtisası üzrə bitirib. 1997-ci ildə Şuşa Mədəni-Maarif Texnikumunda "İslam tarixi, milli əxlaq və dəyərlər" fənnini tədris edib. 2005-2006-cı illərdə həqiqi hərbi xidmət keçib. Gənc yaşlarından Şuşa şəhərində, işğal dövründə isə Bakı şəhərində şuşalıların yaşadığı ərazilərdə dini ayinlərin, yas mərasimlərinin icrası ilə məşğul olub. 2016-cı ildə Şuşa rayonu üzrə imam vəzifəsinə təyin olunub.

# POLŞA MÜSƏLMANLARI İTTİFAQININ SƏDRİ QEYRİ-İSLAM DİNİ QURUMLARININ RƏHBƏRLƏRİ İLƏ GÖRÜŞÜB

Sentyabrın 19-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədr müavini Səyavuş Heydərovun iştirakı ilə Polşa Müsəlmanları İttifaqının sədri, müfti Tomaş Mişkeviç qeyri-islam dini qurumlarının rəhbərləri ilə görüşüb.

Sədr müavini ölkəmizdə dövlətin din sahəsində siyasəti, dini etiqad azadlığının təminatı, dini konfessiyalara qayğı, tolerant və multikultural ənənələr barədə danışıb. Bildirib ki, Azərbaycan dünyəvilik prinsiplərinə əsaslanmaqla multikultural dəyərləri yaşatmaqda və inkişaf etdirməkdədir. Ölkəmiz bu sahədə tarixi təcrübəyə malikdir və Azərbaycanda müxtəlif etnik, dini qrupların birgəyaşayış mühiti sağlam təməllər üzərində qurulub. S.Heydərov diqqətə çatdırıb ki, Azərbaycan dünya üçün sülhü təbliğ edən bir platforma, strategiya, model yaradıb. Bunun yaranmasında ölkəmizdə mövcud olan bütün dini konfessiyalar, icmalar xüsusi fəallıq göstərib, mühüm rol oynayıblar.



Görüşdə iştirak edən Azərbaycan Respublikasının Alban-Udi Xristian dini icmasının sədri Robert Mobili, Bakı şəhəri Dağ Yəhudiləri dini icmasının sədri Milix Yevdayev, Gürcü Yəhudilərinin Bakı dini icmasının sədri Zamir İsayev, Bakı şəhəri “Azərbaycan Bibliya Cəmiyyəti” Xristian dini icmasının sədri Rasim Xəlilov, Azərbaycan Bəhailəri Dini Mərkəzinin katibi Ramazan Əsgərli, Bakı şəhəri “Yevangelist Xristian Baptistlərinin kilsəsi” dini icmasının sədri İlya Zençenko, “Həyat Sözü – 2” Sumqayıt Xristian dini icmasının sədri Elçin Paşayev, “Yeni Həyat” Xristian İncil dini icmasının sədri Lyudmila İbrahimova, Bakı şəhəri Nərimanov rayonu “Yeddinci günün adventistləri” dini icmasının pastoru Elşən Cabbarov, Bakı şəhəri Nəsimi rayonu “Həyatverici Lütf” Xristian dini icmasının sədri Elşən Hüseynzadə çıxış edərək Azərbaycanda müxtəlif millətlərin və konfessiyaların nümayəndələrinin tarixən sülh və əmin-amanlıq şəraitində yaşadığını, Azərbaycanda multikulturalizmin alternativi olmayan həyat tərzinə çevrildiyini vurğulayıblar.

Tarixən müxtəlif dinlərin və sivilizasiyaların qovşağında yerləşən Azərbaycanda tolerantlıq və multikultural dəyərlərin, birgəyaşayış ənənələrinin mövcud olması, dünyəvi və demokratik respublika olan Azərbaycanda din azadlığının tam olaraq təmin edilməsi və müxtəlif dini icmaların dövlət tərəfindən mühafizə edilməsi, eləcə də multikulturalizmin Azərbaycanda rəsmi dövlət siyasəti olması barədə deyilənlər qonaqlar tərəfindən böyük məmnunluqla qarşılanıb. Polşa Müsəlmanları İttifaqının sədri, müfti Tomaş Mişkeviç Azərbaycandakı məzhəblərarası həmrəyliyi və dini konfessiyalar arasındakı tolerant mühiti, bərabərhüquqlu münasibətləri yüksək dəyərləndirib, ölkəmizdəki dini rəngarənglik, multikultural mühitin əhəmiyyətli rolundan danışıb, bu dəyərlərin qorunması və təşviqi istiqamətində həyata keçirilən siyasəti təqdir etdiyini qeyd edib. Vurğulayıb ki, Azərbaycanın bir dövlət olaraq multikulturalizm və tolerantlıq kimi humanist dəyərləri təbliğ etməsi dünyada sülhün bərqəqar olması üçün olduqca əhəmiyyətlidir. Qonaq səmimi qəbula və görüş imkanına görə DQİDK rəhbərliyinə təşəkkürünü bildirib.

Qeyd edək ki, görüşdə ölkəmizin Polşadakı Fövqəladə və Səlahiyyətli səfiri Nərgiz Qurbanova da iştirak edib.

# “MÜASİR ÇAĞIRIŞLAR: BİRGƏYAŞAYIŞIN AZƏRBAYCAN NÜMUNƏSİ”

Sentyabrın 29-da Bakıda “Müasir çağırışlar: birgəyaşayışın Azərbaycan nümunəsi” mövzusunda konfrans keçirilib.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) tərəfindən təşkil olunan konfransda əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib və ərazi bütövlüyümüz uğrunda canından keçən Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib.




Konfransda müxtəlif sivilizasiyaların qovuşduğu məkan olaraq Azərbaycanı əsrlər boyu milli-mədəni rəngarənglik mühitinin formalaşdığı, ayrı-ayrı millətlərin və konfessiyaların nümayəndələrinin sülh, əmin-amanlıq, qarşılıqlı anlaşma və dialoq şəraitində yaşadığı diyar kimi tanıtmaq məqsədilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində Mənəvi Dəyərlərin Təbliği Fondunun sifarişi ilə hazırlanan “Müasir çağırışlar: Dinlərarası birgəyaşayış” mövzusunda qısametrajlı film nümayiş olunub.

Konfransda çıxış edən DQİDK sədrinin müavini Səyavuş Heydərov birgəyaşayışın mənəvi dəyərləri zənginləşdirən bir məsələ olduğunu qeyd edib. Bildirib ki, Azərbaycan reallıqlarında bu cür tendensiya hökm sürür. Bütün xalqların və dinlərin nümayəndələrinə Azərbaycanda hörmət göstərilir. Həmin şəxslərin hüquqları qorunur. Bu da bizim milli təhlükəsizliyimizin və sabitliyimizin təminatıdır. Günümüzdə ölkədə mövcud olan tolerantlıq və birgəyaşayış mühitinin daha da möhkəmlənməsinə xüsusi həssaslıqla yanaşan Azərbaycan Prezidenti cənab İlham Əliyev bu ənənəni daha da inkişaf etdirərək dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevirib. 44 günlük Vətən müharibəsində bütün dünyanın Azərbaycan xalqının birliyinə bir daha şahid olduğunu vurğulayan sədr müavini hər birimizin dövlət başçımızın ətrafında sıx birləşərək torpaqlarımızı azad etdiyimizi və dünyaya birlik, həmrəylik nümunəsi nümayiş göstərdiyimizi qeyd edib. S.Heydərov, eyni zamanda hazırda dünyada mövcud olan mənəvi böhrandan çıxış yolu, o cümlədən bir “yol xəritəsi” kimi Azərbaycanda formalaşmış multikultural, tolerantlıq, birgəyaşayış ənənələrinin qorunub saxlanılmasının, zənginləşdirilməsinin, o cümlədən elmi cəhətdən tədqiq edilməsinin vacibliyinə diqqət çəkib.

Milli Məclisin deputatı Elman Nəsirov çıxışında mövzunun aktuallığından danışıb. Bildirib ki, bütün dünyaya nümunə olan birgəyaşayış modeli və müxtəlif dinlərin harmonik birliyi ictimai sifarişdir və gələcəyimizin təminatçısıdır. Birgəyaşayış mühitinin dövlət-din konsepsiyasına uyğun möhkəmləndirilməsi istiqamətində Ümummilli Lider Heydər Əliyev tərəfindən həyata keçirilən strategiyanın əhəmiyyətini vurğulayan millət vəkili bu uzaqgörən siyasətin çox mükəmməl şəkildə Prezident İlham Əliyev tərəfindən davam etdirildiyini deyib. Hazırda dünyada sülhə və təhlükəsizliyə təminat verən hüquqi sənədin olmadığını dilə gətirən E.Nəsirli beynəlxalq hüququn pozulduğu bir vaxtda Azərbaycanın birgəyaşayışla bağlı siyasəti yüksək səviyyədə həyata keçirdiyini qeyd edib.

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru Rəvan Həsənov bildirib ki, Ermənistan regiondakı prosesləri təhrif edərək “etnik təmizləmə” kimi təqdim edir. Amma reallıq odur ki, Azərbaycan Qarabağda yaşayan ermənilərə reinteqrasiya olunmağı təklif edir. Bununla da onların ağır sosial problemlərdən qurtarılmaları üçün növbəti dəfə imkan yaradır. O əlavə edib ki, müəyyən xarici qüvvələr regiondakı prosesləri süni şəkildə qabardaraq, öz iddialarını gündəmə gətirirlər: “Bu da Azərbaycana qarşı nifrət kampaniyası aparıldığının göstəricisidir. Halbuki Azərbaycanda dini və milli kimliyindən asılı olmayaraq bütün vətəndaşlara bərabər münasibət göstərilir”.

Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədr müavini Fuad Nurullayev Azərbaycan xalqının tolerantlığının, humanistliyinin növbəti dəfə uğurlu lokal antiterror tədbirləri nəticəsində terroristlərdən təmizlənən Qarabağda erməni əsilli əhali ilə münasibətdə özünü göstərdiyini bildirib.

Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyası şurasının katibi Konstantin Pominov bildirib ki, Azərbaycanda heç bir zaman dini konflikt olmayıb, Ermənistan istisna olmaqla bütün ölkələrlə sıx münasibətlərə sahibdir. Ermənistanın istisna təşkil etməsi isə normaldır, çünki onlar dostluq etməyi bacarmır, daim qonşu ölkələrlə problemlər yaşayır.

Alban-Udi Xristian dini icmasının sədri Robert Mobili, Azərbaycan Katolik kilsəsinin nümayəndəsi Yozef Marek, Azərbaycan Bəhailəri Mərkəzinin katibi Ramazan Əsgərli, “Azərbaycan Bibliya Cəmiyyəti” Xristian dini icmasının sədri Rasim Xəlilov çıxışlarında Azərbaycanda dini konfessiya nümayəndələrinə göstərilən diqqət və qayğıdan söz açıblar. O cümlədən çıxışlarında Xristian dininin siyasiləşdirilməsinə, Qarabağ ətrafındakı münaqişəyə dini çalar verilməsi cəhdlərinə kəskin şəkildə etiraz ediblər.

Azərbaycan İlahiyyat İnstitunun rektoru Aqil Şirinov yekun nitqi ilə çıxış edərək tolerantlığın, birgəyaşayış ənənələrinin cəmiyyətdə mövcud olması ilə yanaşı bu dəyərlərin dövlət tərəfindən dəstəklənməsinin önəmini vurğulayıb.

Sonda Azərbaycan İlahiyyat İnstitutunun kitabxanasına DQİDK tərəfindən ölkəmizdəki tolerantlıq mühitinə dair fotolardan hazırlanmış albom təqdim olunub.

Konfrans müzakirələrlə yekunlaşıb.

# QARABAĞDA YENİ MƏRHƏLƏNİN BAŞLANĞICI: AZƏRBAYCANIN BİRGƏYAŞAYIŞ TƏCRÜBƏSİ



Qədim və zəngin tarixə malik olan, Şərqlə Qərbin qovşağında yerləşən Azərbaycan mədəniyyətlərin, sivilizasiyaların, dinlərin qovuşduğu məkandır. Ölkəmizdə ta qədim dövrlərdən müxtəlif etnik-dini köklərə mənsub olan insanlar heç bir diskriminasiyaya məruz qalmadan birgəyaşayış ənənələrini günümüzədək qoruyub saxlamışdır. Birlikdə yaşamaq ənənəsinin dövlət tərəfindən qayğı ilə əhatə olunmasının məntiqi nəticəsidir ki, bu gün ölkəmiz dünyada ən yaxşı nümunələrdən biri kimi qəbul olunur.

Həm demokratik dəyər, həm də multikultural cəmiyyətin ən ali keyfiyyətlərindən olan birgəyaşayış təcrübəsi dövlətimiz tərəfindən müasir dövrün çağırışlarına, tələblərinə uyğun istiqamətdə daha da inkişaf etdirilir. Çünki birgəyaşayış sağlam ictimai münasibətlər mühitinin formalaşması, fərdi və sosial planda təhlükəsizliyin təmin olunması baxımından əvəzedilməz dəyərdir. Xüsusilə, ölkəmiz müstəqilliyini bərpa etdikdən sonra dini etiqad azadlığının bərqərar olunması, dini mənsubiyyətindən asılı olmayaraq hər bir vətəndaşa bərabər hüquqların tanınması bütün dini icmalar, konfessiyalar qarşısında geniş imkanlar açmışdır. Bunun nəticəsidir ki, bu gün Azərbaycanda müxtəlif dinlərin, etnik qrupların nümayəndələri dinc birgə yaşayır və ölkəmizin uğurlu inkişafına öz töhfələrini verirlər. Azərbaycan dünyada məscid, kilsə və sinaqoqun bir arada olduğu, eləcə də müxtəlif dinlərin mənsublarının heç bir ayrı-seçkilik halı ilə qarşılaşmadıqları nadir ölkələrdən biridir. Bundan başqa, bir çox dini tədris müəssisələri də ölkə ərazisində sərbəst şəkildə fəaliyyət göstərir və onlara dövlət tərəfindən lazımi dəstək verilir.

Sözsüz ki, ölkəmizdə müxtəlif millətlərə və dinlərə mənsub insanların hüquqlarının, o cümlədən onlar arasında dözümlülük mühitinin, birgəyaşayış ənənəsinin dövlət səviyyəsində qorunub-saxlanılması Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Çoxkonfessiyalılığı Azərbaycan xalqının sərvəti kimi dəyərləndirən Heydər Əliyev bu reallığı belə ifadə etmişdir: "Azərbaycan milliyyətindən və dinindən asılı olmayaraq müxtəlif xalqların nümayəndələrinin doğma vətənidir. Onlar həmişə mehriban qardaşlıq, qarşılıqlı anlaşma və sıx əməkdaşlıq şəraitində yaşamış, vətənin sevincini də, kədərini də birgə bölüşmüşlər. Öz tarixi ənənələrinə sadiq qalan müstəqil, demokratik Azərbaycan dövlətində bu gün də dilindən, dinindən, etnik mənsubiyyətindən asılı olmadan bütün vətəndaşların vicdan azadlığı, dini etiqad sərbəstliyi təmin edilmişdir".

Günümüzdə ölkədə mövcud olan tolerant və birgəyaşayış mühitinin daha da möhkəmlənməsinə xüsusi həssaslıqla yanaşan Azərbaycan Prezidenti İlham Əliyev bu ənənəni daha da inkişaf etdirərək dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevirmişdir: "Bu gün dünyanın tolerantlıq örnəyinə çevrilən Azərbaycanda ayrı-ayrı din və təriqətlər arasında qarşılıqlı hörmət və etimad mühitinin, multikultural dəyərlərin qorunması və inkişaf etdirilməsi dövlət siyasətinin əsas istiqamətlərindəndir. Xüsusilə vurğulamaq istərdim ki, vaxtilə sovet rejimi tərəfindən etiqad və vicdan azadlığının qadağan edildiyi ölkəmizdə indi bütün xalqların və dinlərin nümayəndələrinin rahat şəkildə və mehriban ailə kimi yaşaması müstəqil Azərbaycanın ən böyük sərvətlərindən biridir".

Qeyd edim ki, Azərbaycan Respublikasının konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə sentyabrın 19-da Qarabağda Azərbaycan silahlı qüvvələri tərəfindən həyata keçirilən 23 saatlıq lokal xarakterli antiterror tədbirlərinin uğurla başa çatmasından sonra erməni sakinlərinin reinteqrasiyası məsələsi daha da aktuallaşıb. Sentyabrın 21-də Azərbaycanın Konstitusiyası və qanunları əsasında reinteqrasiya məsələlərinin müzakirə edilməsi üçün Qarabağın erməni sakinlərinin nümayəndələri ilə Yevlaxda, eləcə də sentyabrın 25-də müzakirələrin davam etdirilməsi məqsədilə Xocalıda keçirilən görüşdə Azərbaycanın gələcəkdə birgəyaşayışla bağlı baxışları onlara çatdırılıb. Dövlətimiz tərəfindən bu proseslərin tənzimlənməsi ilə bağlı müvafiq Komissiya yaradılıb. Əslində, erməni separatçıları uzun illər belə bir fikir formalaşdırmağa çalışırdılar ki, guya "Azərbaycan Qarabağda yaşayan erməni sakinlərə aqressiv münasibət sərgiləyir, onlara qarşı etnik təmizləmə siyasəti həyata keçirəcəkdir. Bu səbəbdən də Qarabağda yaşayan erməni sakinlərinin Azərbaycana reinteqrasiyası mümkün deyil". Ancaq Prezident İlham Əliyev çıxışlarında dəfələrlə qeyd edib ki, çoxmillətli, çoxkonfessiyalı dövlət olan Azərbaycanda bütün vətəndaşlar qanun qarşısında bərabərdir. Dövlət başçımız antiterror tədbirlərinin dayandırılması ilə bağlı xalqa müraciətində bu məqama xüsusi diqqət yetirərək bildirdi ki, Azərbaycan hər zaman olduğu kimi, öz sözünə sadiqdir. Bunu dostlarımız da, düşmənlərimiz də bilir. Bizim sözümüz imzamız qədər dəyərlidir. Deməli, Qarabağda yaşayan və Azərbaycan vətəndaşlığını qəbul edən erməni sakinləri də eyni hüquqlardan faydalanacaqlar. Çünki tarix boyu öz multikultural və birgəyaşayış dəyərləri ilə seçilən Azərbaycan xalqı bu ənənələrə hər zaman olduğu kimi, bu gün də böyük əhəmiyyət verir. Qarabağ iqtisadi rayonunda yaşayan erməni sakinlərinin reinteqrasiyası məsələsi daha çox qarşı tərəfin necə addım atacağından asılıdır. Əgər ölkəmizdə bütün xalqların və dinlərin nümayəndələri birgə yaşamağı bacarırlarsa, yalnız Qarabağda yaşayan erməni sakinlər bundan imtina edirlərsə, deməli, problemi illərdir yanlış ideologiya ilə zəhərlənmiş düşüncələrində görməlidirlər. Onlar düşmənçiliyə, kinə, nifrətə son qoya bilsələr, birgəyaşayışın mümkün olacağı şübhəsizdir və bu, Cənubi Qafqazda sülhün bərqərar olmasına ciddi töhfə verəcəkdir. Azərbaycan ərazisində yaşayan bütün xalqların və dinlərin nümayəndələrinə yaradılan yüksək şəraitin Qarabağda yaşayan və Azərbaycan vətəndaşlığını qəbul edən erməni sakinlərə də şamil olunacağını Azərbaycan Prezidenti dəfələrlə bəyan edib. Dövlət başçımız sentyabrın 20-də xalqa müraciətində bildirdi ki, bütün haqsızlıqlara baxmayaraq, bütün kriminal Ermənistan rejimi tərəfindən törədilmiş cinayətlərə baxmayaraq, biz erməni xalqını bu cinayətlərdə heç vaxt günahlandırmamışıq: "Xocalı soyqırımında, şəhərlərimizin, kəndlərimizin dağıdılmasında, qəbirlərin qazılmasında biz erməni xalqını günahlandırmamışıq. Biz kriminal rejimin ünsürlərini, başda duranların ittiham etmişik və biz onları məsuliyyətə cəlb edirik və edəcəyik. Bəziləri artıq öz layiqli cəzasını alıblar, bəziləri də alacaqlar. ...Onların bütün hüquqları təmin ediləcək - təhsil hüquqları, mədəniyyət hüquqları, din hüquqları, munisipal seçki hüquqları. Yəni, Azərbaycan azad cəmiyyətdir, Azərbaycan çoxmillətli, çoxkonfessiyalı dövlətdir. Bu, bizim böyük sərvətimizdir. Azərbaycanda yaşayan hər bir xalqın nümayəndəsi bunu görür. Bunu izah etməyə ehtiyac yoxdur. Bu, bizim həyat tərzimizdir. Heç vaxt Azərbaycanda dini, milli zəmində ayrı-seçkilik olmayıb və olmayacaq, İkinci Qarabağ müharibəsi bir daha onu göstərdi. Bütün millətlərin nümayəndələri, bütün etnik qrupların, bütün konfessiyaların nümayəndələri bir yumruq kimi birləşdi - Azərbaycan uğrunda, ləyaqət uğrunda, Vətən uğrunda! Ona görə, bax, bu gözəl ab-hava, bu, təbii bir məkandır və biz Qarabağda yaşayan erməni əhalisini buna dəvət edirik".

Nəticə etibarilə, dövlətimiz milli mənsubiyyətindən, dinindən, irqindən asılı olmayaraq, bütün vətəndaşların təhlükəsiz həyat şəraitini necə təmin edirsə, Qarabağda yaşayan və Azərbaycan vətəndaşlığını qəbul edən erməni sakinlərinin də bütün hüquqlarının qorunmasına və təhlükəsiz yaşamasına təminat verəcəkdir. Çünki Azərbaycan tarix boyu multi-etnik və çoxkonfessiyalı ölkə olduğu üçün onun tarixin sınağından çıxmış birgəyaşayış təcrübəsi bütün dünyada nümunə kimi göstərilir. Təsadüfi deyil ki, Qarabağda yaşayan erməni "Laçın" sərhəd-buraxılış məntəqəsində Azərbaycan Televiziyasına müsahibə verərkən, vaxtilə azərbaycanlılarla mehriban yaşadıqlarını, birgəyaşayış ənənəsinin mövcud olduğunu açıq etiraf etdilər. Bu baxımdan Azərbaycan vətəndaşlığını qəbul edən və xalqımızla dinc yanaşı yaşamağı seçəcək ermənilərin reinteqrasiyası və təhlükəsiz yaşaması üçün hər cür şəraitin yaradılacağı şübhəsizdir. Artıq Qarabağın erməni sakinləri də Azərbaycan cəmiyyətinə inteqrasiyadan başqa çıxış yolunun olmadığını və onlar üçün azərbaycanlılarla birgə yaşamağın daha yaxşı gələcək vəd edəcəyini dərk etməyə başlayıblar.

**Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin müavini**
**Səyavuş Heydərov**
*"Azərbaycan" qəzeti*

# MƏSCİD, KİLSƏ VƏ SİNAQOQLARDA ŞƏHİDLƏRİMİZİN ƏZİZ XATİRƏSİ YAD EDİLİB



Sentyabrın 27-də Azərbaycanda Anım Günü qeyd edilib.

Anım Günündə Vətən müharibəsində torpaqlarımızın işğaldan azad edilməsi uğrunda şəhid olan əsgər və zabitlərimizin, mülki vətəndaşlarımızın xatirəsinə həsr olunmuş bir sıra tədbirlər keçirilib.

Şəhidlərimizin əziz xatirəsi Bakıdakı "Təzəpir", "Heydər, "İmam Əli" məscidlərində, eləcə də Sumqayıt, Abşeron, Şamaxı, Quba, İmişli, Zaqatala, Xaçmaz, Balakən, Qax və digər məscidlərdə dərin ehtiramla yad edilib.

Eyni zamanda Azərbaycan Respublikasının Alban-Udi Xristian, Gürcü və Avropa Yəhudilərinin Bakı, Gəncə şəhər Yəhudi, "Gəncə şəhəri Yeddinci Günün Adventistləri" xristian, Sumqayıt yəhudiləri, Sumqayıt şəhər Alov Xristian, Sumqayıt Molokan Xristian Ruhani, Qobustan rayonu Hilmilli kəndi "Molokan ruhani-xristian", Bakı şəhəri "Molokan ruhani-xristian", "Vineyard Azərbaycan" xristian dini icmaları və "Azərbaycan Respublikasında Katolik kilsəsinin Apostol Prefekturası" dini qurumu tərəfindən anım tədbirləri keçirilib.



Respublikamızdakı məscid, kilsə və sinaqoqlarda keçirilən mərasimlərdə Azərbaycanın ərazi bütövlüyü uğrunda canından keçmiş Vətən övladlarının xatirəsi yad edilib, onların ruhlarına dualar oxunub, dini ayinlər icra olunub.



# VƏTƏN MÜHARİBƏSİ ŞƏHİDLƏRİ

*2020-ci il sentyabrın 27-si səhər saatlarında Ermənistanın atəşkəs rejimini növbəti dəfə pozmasına cavab olaraq Müzəffər Azərbaycan Ordusunun əks-hücuma keçməsi ilə başlayan "Dəmir Yumruq" əməliyyatı - 44 günlük Vətən müharibəsi illərdir həsrətində olduğumuz Qarabağın işğaldan azad olunması ilə nəticələndi. İşğalda olan torpaqlarımızı azad etmək üçün böyük həsrətlə gözləyən xalqımızın növbəti erməni təcavüzünə qarşı göstərdiyi əsrarəngiz reaksiya – Vətənin müdafiəsi və ərazi bütövlüyünün bərpası naminə bir yumruq kimi birləşməsi həm də uzun illər ona edilən haqsızlığa qarşı döyüş ruhunun təcəssümü idi. Bu gün hər bir azərbaycanlı qələbəni yaşamaqla bərabər, bu yolda canını fəda edən Vətən övladlarının əziz xatirəsini də unutmur, daim onları yad edir və əbədiyyən qəlbində yaşadacaq. Çünki Vətən uğrunda canından keçən şəhidlərimiz, sağlamlığını itirən qazilərimiz 44 gün ərzində gələcək nəsillərimiz üçün örnək olacaq şanlı tarix yazdılar. Ümumiyyətlə, torpağı Vətənə çevirən, onu müqəddəsləşdirən, özlərini bu yolda fəda edənlər şəhidlərdir. Bu səbəbdən onların hər birini tanımaq və tanıtdırmaq hər birimizin borcudur. Bu mənəvi borcdan irəli gələrək, "Cəmiyyət və Din" qəzeti 2021-ci ildəki ilk sayından etibarən şanlı zəfər tariximizi yazan şəhidlərimiz haqqında böyük fəxarət hissi ilə öz oxucularına məlumat verir, onların şərəfli ömür yollarına işıq tutmağa çalışır.*

## Abdullayev Nurlan İnqilab oğlu



Şəhid Abdullayev Nurlan İnqilab oğlu 1992-ci ilin yanvarın 26-da Beyləqan şəhərində doğulub. O, 1999-cu ildə Namiq Allahverdiyev adına Beyləqan şəhər 1 nömrəli tam orta məktəbin 1-ci sinfinə daxil olub, 2010-cu ildə həmin məktəbin 11-ci sinfini bitirib. Nurlan 2010-cu ilin iyul ayında Beyləqan rayon Hərbi Komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağırılıb. O, Silahlı Qüvvələrin Tərtər rayonunda yerləşən "N" saylı hərbi hissəsində xidmət edib. Nurlan düşmənlə üzbəüz səngərlərdə şücaəti, qətiyyəti, vətən sevgisi ilə xidmət edib, ayıq-sayıq döyüş növbətçiliyi aparıb. Hərbi xidmətini uğurla başa vurduqdan sonra müddətdən artıq hərbi qulluqçu kimi xidmətinə davam etmək qərarına gələn qəhrəmanımız 2014-cü ildə sənədlərini "Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularının hazırlığı" kursuna verib. Kursu uğurla bitirərək Beyləqan rayonunda yerləşən "N" saylı hərbi hissədə sanitar-sürücü vəzifəsində xidmətinə davam edib. Nurlan qısa müddətdə peşəkar sürücü kimi özünü təsdiq etməyi bacarıb. Qəhrəmanımız tək təhlükəsizlik qaydalarına əməl etməyi ilə yox, həm də cəld və çevik şəkildə yaralını təxliyyə etməyi ilə seçilirdi. Bir çox Vətən müharibəsi şəhidi kimi onun da müharibə ilə ilk tanışlığı 2016-cı il Aprel döyüşlərinə təsadüf edib. Lələtəpə yüksəkliyi istiqamətində gedən döyüşlərdə çoxlarının keçilməz sandığı yerlərdən yaralı hərbçilərimizi çıxarıb onların həyatda qalmalarına yardımçı olub.

2020-ci il sentyabrın 27-si səhər saatlarında Ermənistanın atəşkəs rejimini pozub Azərbaycana qarşı hücum etməsi və müzəffər ordumuzun əsk-hücuma keçməsi ilə başlayan Vətən müharibəsində sanitar-sürücü kimi Nurlanın da üzərinə böyük məsuliyyət düşürdü. Qəhrəmanımızın döyüş yolu Füzuli rayonunun Horadiz kəndindən başlayıb. Döyüşlərin ilk günü Horadiz kəndi işğaldan azad edilsə də, həmin istiqamətdə düşmənin illərdir möhkəmləndiyi istehkamları aşmaq ordumuz üçün heç də asan olmayıb. Nurlan ilk gündən öz üzərinə düşən işin öhdəsindən uğurla gəlib. Ordumuz irəlilədikcə onun işi daha da çətinləşsə də, o, yaralı döyüş yoldaşlarını xilas etmək üçün əlindən gələnin artığını etməyə çalışıb. Sentyabrın 30-da qəhrəmanımız növbəti döyüş tapşırığını yerinə yetirən zaman yaxınlığına düşən artilleriya mərmisindən qəlpə yarası alaraq şəhidlik zirvəsinə ucalıb. O, sentyabrın 30-da Beyləqan rayonunun Şəhidlər Xiyabanında dəfn edilib.

Nurlan ailəli idi. Onun Ayla adlı bir qız övladı var.

İgidliyi və cəsurluğu ilə adını vətən tariximizin şanlı səhifəsinə yazan çavuş Abdullayev Nurlan İnqilab oğlu ölümündən sonra iştirak etdiyi döyüş əməliyyatlarında və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin sərəncamı ilə "Vətən uğrunda" və "Füzulinin azad olunmasna görə" medalları ilə təltif edilib.

## Ağayev Zülfü Ağalı oğlu



İkinci Qarabağ müharibəsində Vətənin harayına vaxtında özünü yetirən və bu yolda şəhidlik zirvəsinə ucalmaqla xalqına başucalığı gətirən minlərlə qəhrəmandan biri də Zülfü Ağalı oğlu Ağayevdir. Zülfü 1977-ci fevralın 1-də Astara rayonunun Vaqo kəndində dünyaya gəlib. O, 1983-cü ildə Astara rayon Vaqo kənd tam orta məktəbin 1-ci sinfinə daxil olub, 1994-cü ildə həmin məktəbin 11-ci sinfini bitirib.

1995-ci ildə Astara rayon Hərbi Komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağırılan qəhrəmanımız Silahlı Qüvvələrin "N" saylı hərbi hissəsində xidmət edib. O, hər zaman əsgər yoldaşları arasında seçilib, eləcə də verilən tapşırıqları sözsüz yerinə yetirib. Nümunəvi xidməti, təlimlərdə əla döyüş keyfiyyətləri daim ona başucalığı gətirib. Vətən sevdalısının həqiqi hərbi xidməti başa çatsa da, ordudan tərxis olunmaq istəməyib. Xidmətini başa vurduqdan sonra imtahanları uğurla verərək Müdafiə Nazirliyinin "Gizir hazırlığı kursu"na qəbul olub və tankçı ixtisasını seçib. Ailə üzvlərinin sözlərinə görə, uşaqlıqdan tankçı olmaq arzusunda imiş. Kursu bitirdikdən sonra "N" saylı hərbi hissədə tankçı kimi xidmətini davam etdirən gizir Ağayev daha çox cəbhə bölgəsində olub. İllər ötdükcə hərbçi kimi peşəkarlaşan Zülfü 2016-cı ilin Aprel döyüşlərində Lələtəpənin işğaldan azad olunmasında adından söz etdirməyi bacarıb. Buna görə Zülfü "gizir" rütbəsindən "baş gizir" rütbəsinə yüksəlib. Hərbçimizin xidmət yoldaşı, həmçinin Lələtəpə döyüşlərində birlikdə iştirak etdiyi qazi Əliyev Orxan Məhərrəm oğlu Zülfü ilə tanışlığı, onun hərbçi kimi peşəkarlığı və insan kimi yüksək keyfiyyətlərə malik olması haqqında deyir: "Zülfüylə 2013-cü ildə Beyləqandakı "N" saylı hərbi hissədə xidmət edərkən tanış olmuşduq. Yerliydik deyə bir-birimizə "yerli" deyərdik. Ona saygım, sevgim həddsizdi. Çox dürüst, vətənpərvər, sadiq insan idi. Aprel döyüşlərində birlikdə iştirak etmişdik. Orada onun təmkininin, peşəkarlığının bir daha şahidi oldum. Aprel döyüşlərində mən yaralandım, ehtiyata buraxıldım. Amma dostluğumuz davam edirdi".

Zülfü hərbi xidməti dövründə 2013-cü ildə "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)", 2018-ci ildə "Azərbaycan Ordusunun 100 illiyi" yubiley medallarına layiq görülüb. 2020-ci ildə isə "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli medalı ilə təltif olunub.

2020-ci il sentyabrın 27-də Vətən müharibəsinin ilk günündə baş gizir Zülfü yenə də öndə gedir. Zəfərə gedən yolda mərdliklə vuruşur, düşmənin illərdir keçilməzliyi haqqında mif yaratdığı cəbhə xəttini keçib Füzuli rayonunun bir neçə kəndinin işğaldan azad olunmasında iştirak edir. Lakin elə həmin gün Füzuli rayonun Yuxarı Əbdürrəhmanlı kəndi istiqamətində şəhid olur.

İkinci Qarabağ müharibəsində döyüş maşın komandiri olan Məmmədov Azər Hüseyn oğlu müharibənin ilk gününü belə xatırlayır: "Döyüş maşın komandiri idi. PDM-2-ni o qədər mükəmməl idarə edirdi ki... Ən xırda nasazlığı belə hiss edirdi. Bildiklərini bütün əsgərlərinə öyrədirdi. Zülfü bizim idealımız olub. Dəfələrlə fəxri fərmanlar alıb. Müharibənin ilk günü çox ağır keçdi. Düşmən hər yeri minalamışdı, illər boyu istehkamlar qurmuşdu. Zülfü də həmin gün şəhid oldu. Önündə baş əyiləcək igid adam idi".

Müharibənin ilk günü şəhid olan baş gizir Ağayev Zülfü Ağaəli oğlu doğulduğu Vaqo kəndində torpağa tapşırılıb.

Şəhidimiz ailəli idi. Onun Orxan adlı bir oğlu var.

Cəsarəti və qəhrəmanlığı ilə adını hərb tariximizin şanlı səhifəsinə yazan baş gizir Ağayev Zülfü Ağaəli ölümündən sonra iştirak etdiyi döyüş əməliyyatlarında və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin sərəncamları ilə "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilib.

## Akifzadə Elmir Gündüz oğlu



Şəhid Akifzadə Elmir Gündüz oğlu 1997-ci il sentyabrın 1-də Masallı rayonunun Bambaşı kəndində anadan olub. Ailənin tək oğlu olan Elmir 2004-cü ildə Bambaşı kənd Cavanşir Qasımov adına tam orta məktəbin birinci sinfinə gedib, təhsilini Bakı şəhəri 246 nömrəli tam orta məktəbdə davam etdirib. 2008-ci ildə yenidən Bambaşı kənd Cavanşir Qasımov adına tam orta məktəbinə qəbul olunub və 2015-ci ildə həmin məktəbin on birinci sinfini bitirib.

2015-ci ilin oktyabr ayında Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin (SHXÇDX) Masallı rayon şöbəsi tərəfindən ordu sıralarına çağırılıb. Azərbaycan Silahlı Qüvvələrinin Qusar rayonunda yerləşən "N" saylı hərbi hissəsində xidmət etməyə başlayıb.

Aprel döyüşlərində iştirakından sonra Fəxri Fərman və "Təşəkkürnamə" ilə təltif olunub. Hərbi xidmətdən qayıtdıqdan sonra, 2018-ci ildə Rusiya Federasiyasının Kazan şəhərinə yollanan Elmir elə həmin ildə də Kazan Dövlət Universitetinin Maliyyə-iqtisad fakültəsinə daxil olub.

2020-ci ilin iyul ayında ölkəmiz mənfur düşmənin hücumuna məruz qalan zaman Kazan şəhərində, təhsil aldığı universiteti yarımçıq qoyub Azərbaycana geri dönərək Vətənini erməni faşizimindən azad etmək üçün SHXÇDX-nin Masallı rayonunda yerləşən şöbəsinə müraciət edib.

Vətən müharibəsi başladıqdan sonra 2020-ci ilin sentyabr ayının 29-da ordu sıralarına çağırılan Zaur Ağcabədi rayonunda yerləşən "N" saylı hərbi hissəyə aparılıb. Bir neçə gün orada qaldıqdan sonra könüllü olaraq ön cəbhəyə gedib. Cəbrayıl və Füzuli rayonlarının bəzi kəndlərinin azad olunmasında böyük şücaət göstərib. 2020-ci il oktyabrın 7-də Xocavənd-Hadrut istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olub. O, Bambaşı kəndində torpağa tapşırılıb.

Şəhidimiz subay idi.

İgidliyi ilə fərqlənən qəhrəmanımız Akifzadə Elmir Gündüz oğlu ölümündən sonra iştirak etdiyi döyüş əməliyyatlarında və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin sərəncamı ilə "Vətən uğrunda" medalı ilə təltif edilib.

**Hazırladı: Ramil Hikmət**

# QISA-QISA

*Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) ölkə ərazisində dövlət-din münasibətlərinin yüksək səviyyədə tənzimlənməsi, din adı altında milli və dövlət maraqlarımıza zidd ideoloji təlimlərin yayılmasının qarşısının alınması, insanların mənəvi baxımdan daha sıx birləşməsi istiqamətində maarifləndirmə fəaliyyətini sentyabr ayı ərzində də davam etdirmişdir.*

Cari ay ərzində bu qəbildən olan tədbirlər:



**4 sentyabr** – DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Göygöl rayonunda "Gənclər arasında multikulturalizm və tolerantlıq ənənələrinin təbliğ olunması" mövzusunda;

**5 sentyabr** – DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi və Zaqatala rayonunda yerləşən "N" saylı hərbi hissənin birgə təşkilatçılığı ilə "Xalqımızın milli birliyinin möhkəmlənməsində mənəvi dəyərlərimizin rolu" mövzusunda;

**7 sentyabr** – DQİDK-nın Göyçay bölgəsi üzrə şöbəsi və Mərkəzi Aran Regional Gənclər və İdman İdarəsinin (GİI) Ucar rayon sektorluğunun birgə təşkilatçılığı ilə "Azərbaycanda multikultural və tolerantlıq dəyərləri" mövzusunda; DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsi, Sabirabad Rayon İcra Hakimiyyəti (RİH) və Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) Sabirabad rayonu üzrə nümayəndəliyinin birgə təşkilatçılığı ilə "Milli dövlətçiliyin möhkəmlənməsi: azərbaycançılıq ideologiyası və mənəvi dəyərlərimiz" mövsuzunda; DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsi və Mingəçevir Şəhər Mərkəzləşdirilmiş Kitabxana Sisteminin (MKS) birgə təşkilatçılığı ilə "Sülh və birgəyaşayışın əsas şərtləri" mövzusunda; DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə "Sülh aylığı" çərçivəsində "Dünyəvi dövlətdə və cəmiyyətdə dini tolerantlığın önəmi" mövzusunda; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Naftalanda "Sağlam həyat, sağlam gələcək" mövzusunda; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi və Qax RİH-in birgə təşkilatçılığı ilə Qax rayon Etibar Babayev adına 4 nömrəli tam orta məktəbdə "Dini məzhəbçilik meyillərinin milli birliyə və dini təhlükəsizliyə təsiri" mövzusunda;

**8 sentyabr** – DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsi və QMİ-nin Goranboy rayonu və Naftalan şəhəri üzrə nümayəndəliyinin birgə təşkilatçılığı ilə "Dini radikalizmlə mübarizədə din xadimlərinin üzərinə düşən vəzifələr" mövzusunda;

**12 sentyabr** – DQİDK-nın Masallı bölgəsi üzrə şöbəsi, Ombudsmanın Cənub Regional Mərkəzi və Masallı rayonu R.Tağıyev adına Tarix-Diyarşünaslıq Muzeyinin birgə təşkilatçılığı ilə "Sülh və birgəyaşayışın əsas şərtləri" mövzusunda; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsi və Ombudsmanın Qərb Regional Mərkəzinin birgə təşkilatçılığı ilə Gəncə şəhər Mərkəzləşdirilmiş Kitabxanasında "Sülh və birgəyaşayışın əsas şərtləri" mövzusunda; DQİDK-nın Şamaxı bölgəsi üzrə şöbəsi və İsmayıllı RİH-in birgə təşkilatçılığı ilə "Dinin siyasiləşdirilməsi milli təhlükəsizliyə və mənəvi dəyərlərə təhdid kimi" mövzusunda; DQİDK-nın Göyçay bölgəsi üzrə şöbəsi, Mərkəzi Aran Regional GİI-nin Ucar rayon sektorluğu və rayon Mərkəzi Xəstəxanasının birgə təşkilatçılığı ilə "Heydər Əliyevin milli-mənəvi dəyərlərin formalaşmasında rolu" mövzusunda;

**13 sentyabr** – DQİDK-nın Quba bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə "Heydər Əliyev və Azərbaycanda milli intibah dövrü: dini etiqad azadlığı hüququ, tolerantlıq və azərbaycançılıq" mövzusunda; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsi və Göygöl şəhər "Heydər" məscidi dini icmasının birgə təşkilatçılığı ilə "İslamda şəhidlik məqamı" mövzusunda; DQİDK-nın Göyçay bölgəsi üzrə şöbəsi və Zərdab RİH-in birgə təşkilatçılığı ilə "Dini radikalizm, terrorizm və ekstremizm" mövzusunda; DQİDK-nın təşkilatçılığı ilə Dövlət Sərhəd Xidmətinin Şəmkir rayonu ərazisindəki "N" saylı hərbi hissəsində "İntihar: mənəvi və ictimai müstəvidə" mövzusunda;

**14 sentyabr** – DQİDK-nın Masallı bölgəsi üzrə şöbəsi, Lənkəran-Astara Regional GİI-nin Yardımlı rayonu üzrə gənclər və idman sektoru və Lənkəran-Astara Regional Mədəniyyət İdarəsinin Yardımlı rayon Mərkəzi Kitabxanasının birgə təşkilatçılığı ilə "Dünyəvi dövlətdə və cəmiyyətdə dini tolerantlığın önəmi" mövzusunda; DQİDK-nın Şamaxı bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə "Sülh aylığı" çərçivəsində "Sülh və birgəyaşayışın əsas şərtləri" mövzusunda; DQİDK-nın Göyçay bölgəsi üzrə şöbəsi və Ucar rayonu Heydər Əliyev Mərkəzinin birgə təşkilatçılığı ilə "Sağlam həyat tərzi və zərərli vərdişlər" mövzusunda; DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsi, Mil Muğan Regional GİI-nin Saatlı rayonu üzrə gənclər və idman sektoru, Saatlı "Gənclər Evi" sosial xidmət müəssisəsinin birgə təşkilatçılığı ilə "Zərərli vərdişlərə yox deyək" mövzusunda;



**15 sentyabr** – DQİDK-nın Göyçay bölgəsi üzrə şöbəsi və QMİ-nin bölgə qazılığının birgə təşkilatçılığı ilə "Sülh aylığı" çərçivəsində "Dünyəvi dövlətdə və cəmiyyətdə dini tolerantlığın önəmi" mövzusunda; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Samux rayonunun Qarayeri qəsəbəsində "Gəncləri radikal dini cərəyanların təsirindən qoruyaq" mövzusunda; DQİDK-nın Şamaxı bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə "Dini radikalizm, ekstremizm, fanatizm və onların təhlükələri" mövzusunda; DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Bərdə Dövlət İdarəetmə və Texnologiya Kollecində "Dini radikalizm və ekstremizmin təhlükələri" mövzusunda; DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Goranboyda "Gəncləri yad dini ideologiya və təsirlərdən qoruyaq" mövzusunda;

**19 sentyabr** – DQİDK-nın Quba bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Xudat şəhərində yerləşən N saylı hərbi hissədə "Vətənpərvərlik ruhunun yüksəldilməsində mənəvi və dini dəyərlərin rolu" mövzusunda;

**20 sentyabr** – DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi, Balakən RİH və Gənclərin İnkişaf və Karyera Mərkəzinin Şəki-Zaqatala Regional İdarəsinin Balakən şöbəsinin birgə təşkilatçılığı ilə Balakən şəhəri Nəsimi adına 2 saylı tam orta məktəbdə "Zəfərə aparan yol: milli və dini həmrəylik" mövzusunda; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi, Qax RİH və Şəki-Zaqatala regional GİI-nin Qax rayonu üzrə gənclər və idman sektorunun birgə təşkilatçılığı ilə Qax rayon İlisu kənd tam orta məktəbində "Sülh aylığı" çərçivəsində "Sülh və birgəyaşayışın əsas şərtləri" mövzusunda;

**25 sentyabr** – DQİDK-nın təşkilatçılığı ilə 6 və 15 saylı Cəzaçəkmə müəssisələrində "İslam həmrəyliyi dini radikalizmə alternativ kimi" mövzusunda;

**26 sentyabr** – DQİDK-nın Quba bölgəsi üzrə şöbəsi, Quba RİH və İnsan hüquqları üzrə Müvəkkilin Regional Mərkəzinin birgə təşkilatçılığı ilə "Zəfərə aparan yol: milli və dini həmrəylik" mövzusunda;

**27 sentyabr** – DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Qax və Zaqatala rayonlarında "44 günlük Vətən müharibəsi Azərbaycan xalqının qəhrəmanlıq salnaməsidir" mövzusunda; DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Ağdaş rayonunda "Milli mənəvi dəyərlərin təbliği və dini maarifləndirmənin effektivliyinin artırılmasında medianın rolu" mövzusunda; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə "Vətən uğrunda şəhadət ən ali məqamdır" mövzusunda; DQİDK-nın Şamaxı, Göyçay, Lənkəran, Şirvan, İmişli bölgəsi üzrə şöbələrinin təşkilatçılığı ilə 27 Sentyabr - Anım Günü ilə əlaqədar;



**29 sentyabr** – DQİDK-nın Göyçay bölgəsi üzrə şöbəsi, Ucar RİH və rayon Polis Şöbəsinin birgə təşkilatçılığı ilə "Gənclər arasında dini radikalizm və onun təzahür formaları" mövzusunda; DQİDK-nın Şəki bölgəsi üzrə şöbəsi və Şəki ŞİH-in birgə təşkilatçılığı ilə Şəki İslam Kollecində "Narkomaniyaya qarşı mübarizədə dini icmaların rolu" mövzusunda; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Göygöl rayon Mollacəlilli kənd orta məktəbində "Vətənpərvər gəncliyin dini radikalizmə qarşı mübarizəsi" mövzusunda baş tutub.

DQİDK-nın bölgə şöbələrinin və digər qurumların əməkdaşlarının, rayonların dini icma sədrləri və din xadimlərinin, QMİ-nin səlahiyyətli nümayəndələrinin, o cümlədən hərbi hissələrin şəxsi heyəti, müəllimlər, mədəniyyət işçiləri, gənclər və ictimaiyyət nümayəndələrinin iştirakı ilə keçirilən tədbirlərdə natiqlər milli birliyin möhkəmlənməsində mənəvi dəyərlərin rolu barədə danışıblar. Qeyd edilib ki, milli-mənəvi dəyərlərə və tarixi-mədəni irsə bağlılığın möhkəmlənməsi, adət-ənənələrin qorunması, mədəni-tarixi abidələrin mühafizəsi, mənəvi irsin öyrənilməsi dövlət siyasətinin prioritet istiqamətlərindən birini təşkil edir.

**27 sentyabr** – Anım Günü ilə əlaqədar keçirilən tədbirlərdə şəhidlərimizin ruhlarına dualar oxunub, vətən, torpaq və şəhidlik haqqında çıxışlar edilib, 44 günlük Vətən müharibəsində Azərbaycanın əldə etdiyi Zəfərdə əsgərlərimizin misilsiz qəhrəmanlıqlarından bəhs olunub. Prezident İlham Əliyev, Birinci vitse-prezident Mehriban Əliyeva tərəfindən şəhid ailələrinə, qazilərimizə göstərilən qayğının hər birimiz üçün örnək və nümunə olduğu qeyd edilib.

Çıxışlarda dini radikalizm və ekstremizmlə mübarizədə milli-mənəvi dəyərlərimizin rolu mövzusuna da toxunulub. Gənclərin zərərli vərdişlərdən və radikal dini təsirlərdən qorunmasının vacibliyi vurğulanaraq, xalqımızın zəngin milli-mənəvi, tolerant və multikultural dəyərlərinin gənclər arasında fəal təbliğ edilməsinin vacibliyi diqqətə çatdırılıb. Həmçinin bu istiqamətdə dövlətin həyata keçirdiyi tədbirlərdən bəhs olunub.

Çıxışlar zamanı ölkəmizdə müxtəlif dinlərin, məzhəblərin və xalqların nümayəndələrinin sülh və qarşılıqlı hörmət şəraitində yaşadıqları qeyd edilib. Natiqlər məzhəbçilik və dini təəssübkeşlik meyillərinin multikultural cəmiyyət üçün yad olduğunu bildiriblər. Xüsusilə qeyd olunub ki, ölkəmizdə bütün dinlərin nümayəndələrinin hüquq, inanc və azadlığına hörmətlə yanaşılır.

Narkomaniyanın fəsadları və ölkəmizdə narkomaniyaya qarşı görülən tədbirlərdən, zərərli vərdişlərə qarşı mübarizədə gənclərin milli-mənəvi dəyərlər əsasında tərbiyəsinin əhəmiyyətindən, İslam dinində insan həyatına verilən dəyərdən, radikalizmin yaranma, yayılma və inkişaf səbəbləri, onunla mübarizə metodları, radikalizmdən qorunma üsullarından bəhs olunan tədbirlərdə qarşılıqlı diskussiyalar aparılıb, iştirakçıların təklifləri dinlənilib, onları maraqlandıran suallar cavablandırılıb.

# DİNİ İCMALARIN ÜZVLƏRİ ÜÇÜN TƏLİM TƏŞKİL EDİLİB

Sentyabrın 28-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Maliyyə Monitorinqi Xidmətinin birgə təşkilatçılığı ilə dini icma üzvlərinə “Dini qurumların fəaliyyətində ƏL/TMM üzrə qanunvericiliklə nəzərdə tutulmuş öhdəliklər” mövzusunda təlim keçirilib.

Azərbaycan İlahiyyat İnstitutunda baş tutan təlim əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə (ƏL/TMM) sahəsində vəzifələr, bu istiqamətdə qanunvericiliyin yeni tələblərinin tətbiqi və qabaqcıl beynəlxalq təcrübə barədə dini icmaların məlumatlandırılması məqsədi daşıyıb.

Çıxış edən Maliyyə Monitorinqi Xidmətinin əməkdaşları Fuad Əliyev və Samir Məmmədov ƏL/TMM sahəsinə dair qanunvericiliklə nəzərdə tutulmuş öhdəliklər, dini qurumlar vasitəsilə əmlakın leqallaşdırılması, eləcə də terrorçuluğun maliyyələşdirilməsi sxemləri və ianələrin toplanılması zamanı onlardan sui-istifadə hallarının qarşısının alınması barədə ətraflı məlumatı tədbir iştirakçılarının diqqətinə çatdırıblar.

Sonda dinləyiciləri maraqlandıran suallar cavablandırılıb.

# DQİDK YANINDA İCTİMAİ ŞURANIN YENİ TƏRKİBİNİN FORMALAŞDIRILMASI ÜÇÜN NAMİZƏDLƏRİN QƏBULU ELAN EDİLİR

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) fəaliyyət istiqamətləri üzrə hüquqi aktların qəbulunda, Komitənin fəaliyyətinə ictimai nəzarətin təşkilində vətəndaşların və vətəndaş cəmiyyəti institutlarının iştirakını təmin etmək məqsədilə Dövlət Komitəsi yanında İctimai Şuranın yeni tərkibinin formalaşdırılması prosesinə başlanılıb. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin 3-32/3-1-545/2023 nömrəli, 12 iyun 2023-cü il tarixli əmri ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi yanında İctimai Şuraya seçkinin təşkili məqsədi ilə Seçki Komissiyası yaradılıb. Seçki Komissiyası tərəfindən İctimai Şuranın üzvlərinin say həddi və İctimai Şuraya namizədlərin irəli sürülməsi və qeydiyyatı üçün nəzərdə tutulan müddət müəyyən edilib.

Dövlət Komitəsi yanında İctimai Şura üzvlüyünə namizədlərin irəli sürülməsi prosesinə 12 sentyabr 2023-cü il tarixindən başlanılıb.

Müraciətə aşağıdakı sənədlər əlavə edilməlidir:

1. İctimai Şurada üzvlüyə namizədin irəli sürülməsi barədə müraciət (telefon və elektron poçt ünvanı göstərilməklə);
2. namizədin şəxsiyyət vəsiqəsinin surəti;
3. namizədin tərcümeyi-halı;
4. namizəd vətəndaş cəmiyyəti institutunun üzvü olduqda, həmin üzvlüyü təsdiq edən sənədin surəti.

Bütün bunlardan əlavə, namizəd barədə ətraflı məlumat verən digər sənədlər də təqdim oluna bilər.

Birgə yığıncaqda (səsvermə) iştirak etmək istəyən namizədlər qeyd olunan sənədləri oktyabrın 12-dək (iş günləri saat 10.00-dan 17.00-dək) Dövlət Komitəsinə şəxsən təqdim edə və ya elektron poçt ünvanına (dk-public@scwra.gov.az) göndərə bilərlər.

Ünvan: Bakı şəhəri, Əhməd Cavad 16

Tel: (+994 12) 437-31-15

# GƏNCƏDƏKİ ALEKSANDR NEVSKİ PRAVOSLAV KİLSƏSİNİN 136 İLLİYİ QEYD OLUNUB



Gəncədəki Aleksandr Nevski Pravoslav Kilsəsinin 136 illiyi qeyd olunub. Bununla bağlı adıçəkilən məbəddə dini ayinlər icra olunub.

Kilsənin yaradılması ilə bağlı təşkil olunmuş tədbirdə Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyası idarəsinin katibi Arximandrit Aleksiy (Nikonorov), Gəncə şəhəri və ətraf bölgələrdə yaşayan pravoslavlar iştirak ediblər.

Aleksandr Nevski Pravoslav Kilsəsi 1887-ci ildə şəhərin köhnə qəbiristanlığının yerində həm yerli pravoslavların, həm də müsəlmanların xeyriyyə vəsaiti hesabına inşa edilib. 1916-cı ildə kafedral statusuna sahib olan kilsə 1931-ci ildə Sovet hökuməti tərəfindən bağlanıb. 1935-1938-ci illərdə muzey binası kimi istifadə edilib. Muzey eksponatlarının başqa bir yerə (məscidə) köçürülməsindən sonra məbəd binası anbar kimi istifadə edilib. 1946-cı ildə məbəd Rus Pravoslav Kilsəsinə qaytarılıb.

# AZƏRBAYCANDAKI YƏHUDİLƏR ROŞ HA-ŞANA BAYRAMINI QEYD EDİBLƏR



Qubadakı Qırmızı qəsəbədə yaşayan dağ yəhudiləri Roş Ha-Şana bayramını qeyd ediblər.

Qəsəbə sakinləri yəhudi təqviminə görə 5784-cü ilin gəlişini qarşılayıblar. Roş Ha-Şana bayramının vaxtı təqvimə görə dəyişsə də, hər il əsasən sentyabr ayına təsadüf edir. Bu ilin təqviminə əsasən 15-17 sentyabr bayram günlərinə təsadüf edib.

Roş Ha-Şana bayramı dünyanın müxtəlif məkanlarında yaşayan bütün yəhudilər tərəfindən təntənəli şəkildə keçirilir.

Quba Rayon İcra Hakimiyyətinin Qırmızı qəsəbə inzibati ərazi dairəsi üzrə nümayəndəsi Telman Muxaylov bildirib ki, bayram günlərində qəsəbədə hər kəs öz ailəsi, doğmaları ilə bu bayramı qeyd edir. Yeni ilin ilk 10 günündə yəhudilər müxtəlif dini ayinləri yerinə yetirir, tövbə edir, müqəddəs “Tövrat”ı oxuyurlar. Onuncu gündə isə bütün sutkanı ac qalmaqla oruc tutur və müqəddəs “Yom Kipur” gününü qeyd edirlər.

Qırmızı qəsəbə sakinləri yəhudi təqvimi ilə Yeni ilin başlanğıcı sayılan bayram günündə dualar oxuyur, ehtiyacı olanlara əl tutur, Tanrıdan günahlarının bağışlanmasını diləyirlər.

Bayram süfrəsində dadlı təamlarla yanaşı, dəyirmi doğranmış yerkökü, balıq başı, nar, alma və balın olması vacibdir. Dəyirmi formada doğranmış yerkökü qızıl pulu, vardövləti, süfrədəki balıq başı ailə başçısını, ailənin böyüyünü simvolizə edir. Bayram təamlarını dadarkən alma bala batırılaraq yeyilir ki, ilboyu ailədə şirinlik, isti münasibət hökm sürsün. Dənələnmiş nar isə ailənin böyüməsinə, yeni doğulacaq uşaqlara işarədir.

Dağ yəhudilərinin Qubada məskunlaşması XVIII əsrin ortalarına təsadüf edir. Fətəli xanın Quba xanlığına rəhbərlik etdiyi dövrlərdə ətraf ərazilərdə yaşayan yəhudilər bura köçməyə başlayıblar. Həmin vaxt salınan yəhudi məhəllələrində 10-dan çox sinaqoq inşa olunub. Uzun illərdir buradakı yəhudilər azərbaycanlılarla birlikdə, sülh və əminamanlıq şəraitində yaşayırlar.

Qırmızı qəsəbə dünyada İsraildən sonra yəhudilərin yığcam yaşadığı nadir məkandır. “Qafqazın Yerusəlimi” adlandırılan qəsəbədə məskunlaşan yəhudilər uzun illərdir öz adət-ənənələrini yaşadırlar. Burada yəhudilərin dini icması, milli mədəniyyət mərkəzi və Dağ Yəhudiləri muzeyi fəaliyyət göstərir.

***

Gəncədə də Roş Ha-Şana bayramı münasibətilə tədbir keçirilib. Bayram tədbirində Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Gəncə bölgəsi üzrə şöbəsinin müdiri Həsən Məmmədov, Gəncə şəhəri Yəhudi dini icmasının üzvləri iştirak ediblər.

Çıxışlarda qeyd olunub ki, hər il Azərbaycanda böyük təntənə ilə qeyd edilən Roş Ha-Şana bayramı yeniliyi, mənəvi saflığı, xeyirxahlıq və həmrəylik duyğularını təcəssüm etdirir.

# VAKANT VƏZİFƏLƏRİN TUTULMASI ÜÇÜN KEÇİRİLƏN NÖVBƏTİ MÜSAHİBƏ BAŞA ÇATIB

Cari ilin 4-19 sentyabr tarixlərində Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) tərəfindən İslam dininə aid ibadət yerlərində (məscidlər) vakant vəzifələrin tutulması üçün keçirilən növbəti müsahibə prosesi başa çatıb.

Müsahibənin 4-8 sentyabr tarixlərini əhatə edən birinci mərhələsində qadın dini ayinlərin icraçısı, 11-19 sentyabr tarixlərini əhatə edən ikinci mərhələsində isə imam və imam müavini vakansiyaları üzrə müraciət edən namizədlərin seçimi həyata keçirilib.

3 may-3 iyun tarixlərində sənəd qəbulu aparılan 19 vakant vəzifəyə (6 qadın dini ayinlərin icraçısı, 3 imam, 10 imam müavini) 113 qadın, 180 kişi olmaqla, ümumilikdə 293 nəfərin müraciəti qeydiyyata alınıb.

6 vakansiya üzrə keçirilən müsahibə prosesində qadın namizədlərdən 23, imam və imam müavini vəzifələrinin tutulması üçün 13 vakansiya üzrə 52 nəfər müvəffəqiyyət qazanıb.

Sənədləri qeydiyyata alınan 18 nəfər (9 kişi, 9 qadın) müsahibədə iştirak etməyib.

Qeyd edək ki, “Dini etiqad azadlığı haqqında” Azərbaycan Respublikasının Qanununa dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanından irəli gələn məsələlərin həlli məqsədilə DQİDK tərəfindən “İslam dininə aid ibadət yerlərinə və ziyarətgahlara din xadiminin təyin olunması, attestasiyası və tutduğu vəzifədən azad edilməsi Qaydası” hazırlanıb. Bu qaydaya əsasən Dövlət Komitəsi tərəfindən İslam dininə aid ibadət yerlərində (məscidlər) vakant vəzifələrin tutulması üçün mütəmadi olaraq müsahibələr həyata keçirilir.

# CƏMİYYƏT və DİN

№ 09 (383) SENTYABR 2023-cü il


## QEYRİ-KOMMERSİYA DİNİ QURUMLARININ DÖVLƏT REYESTR (DİNİ QURUMLARIN DÖVLƏT REYESTRİ) MƏLUMATLARI

### "Salyan şəhəri "Ağa Hüseyn" məscidi" dini icması

**Qeydiyyat tarixi:** 20 aprel 2016-cı il
**Qeydiyyat №-si:** 100116C –640

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Hüseynov İbrahim İsgəndər oğlu, Səlimov Mübariz Əkrəm oğlu, Məlikov Məlik Bahadır oğlu, Əsgərova Sərbiyyə Müsəvvir qızı, Hüseynov Ağabala Müseyib oğlu, Hüseynova Balaxanım Əliniyaz qızı, Məmmədov Murad Vüqar oğlu, Abasov Sədafər Abasağa oğlu, Fələk-zadə Böyükxanım Səlim qızı, Mikailov Əjdər Əliheydər oğlu, Səmədli Şahmar Taləddin oğlu, Abasov Elvin Rövşən oğlu, Hüseynov Vüqar Elçin oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Cəfərov Şahin Mikayıl oğlu, Babayev Dəyanət Ədalət oğlu, Məmmədov Əzizağa Abdul oğlu, Qədirov Yaqub Aslan oğlu, Qədirli Asim Eynur oğlu, Allahverdiyev Fərid İlham oğlu, Babayeva Zahirə Qürbət qızı, Məmmədova Rahilə Hümmət qızı, Babayeva Aynurə Nurəddin qızı, Hüseynova Sara Zəfər qızı, Babayeva Vüsalə Zəfər qızı, Babayeva Şirin Hidayət qızı, Hüseynova Gülnarə Hidayət qızı dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Hüseynov İbrahim İsgəndər oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.

Babayev Vüsal Zəfər oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

**Dəyişikliklərin qeydiyyat tarixi** 20 sentyabr 2023-cü il

## DUBAYDA DÜNYANIN İLK ÜZƏN MƏSCİDİ TİKİLƏCƏK



Dubayda sualtı ibadət zalı olan ilk üzən məscid tikiləcək. Dubay Su Kanalında həyata keçiriləcək layihənin dəyəri 55 milyon dirhəm (15 milyon ABŞ dolları) təşkil edəcək.

Yeni meqalayihənin məqsədi dini turizm sektorunu inkişaf etdirməkdir və bunun sayəsində əmirlik daha çox səyahətçi, o cümlədən müsəlmanları cəlb etməyə ümid edir. Məscid binası üç mərtəbədən ibarət olacaq, mərtəbələrdən biri suyun altında yerləşəcək. Məscid eyni vaxtda 75-ə qədər dindarı qəbul edəcək.

Suyun üstündəki iki mərtəbə İslam mühazirələri və seminarlar üçün ayrılacaq. Eyni zamanda, məscidin bütün dinlərin nümayəndələri üçün açıq olacağı bildirilir. Lakin onlar bu ərazidə İslam adət və ənənələrinə uyğun geyinməli və davranmalı olacaqlar.

Daha əvvəl elan edildiyi kimi, Dubayda dünyanın ilk 3D printerində çap olunmuş məscidi tikiləcək. Binanın sahəsi 2000 kvadratmetr olacaq və eyni vaxtda 600 dindarı qəbul edəcək. Tikintinin başa çatdırılması 2025-ci ilə planlaşdırılır.

"Bar Dubai" ərazisindəki tikintiyə 2023-cü ilin oktyabrında başlanacağı bildirilir. Xammaldan və beton qarışığından saatda iki kvadratmetr konstruksiya çap etməyə qadir olan robot-printeri üç işçi idarə edəcək.

2016-cı ildə dünyanın ilk ekoloji təmiz məscidi Dubaydakı "Dayanıqlı şəhər" kompleksi ərazisində açılıb. Onun ümumi sahəsi 10 min kvadratmetrdir və 700 ibadətçini qəbul edə bilir.

Şirkətin bəyanatında deyilir ki, məsciddə Dubayın yaşıl strategiyasına uyğun olaraq ətraf mühitə mənfi təsirləri minimuma endirmək üçün innovativ texnologiyalardan istifadə edilir. Binada enerji sərfiyyatı 90 faiz azaldılıb. Məscidin parklanma sahəsi günəş panelləri ilə təchiz olunub.

## Bakı və Abşeron üzrə namaz vaxtları (Oktyabr - 2023)

| Gün | Sübh azanı | Gün çıxır | Zöhr azanı | Əsr azanı | Axşam azanı | İşa |
|---|---|---|---|---|---|---|
| 1 | 05:16 | 06:36 | 12:30 | 16:38 | 18:38 | 19:38 |
| 2 | 05:17 | 06:37 | 12:30 | 16:37 | 18:36 | 19:37 |
| 3 | 05:18 | 06:38 | 12:29 | 16:35 | 18:34 | 19:35 |
| 4 | 05:19 | 06:39 | 12:29 | 16:34 | 18:33 | 19:33 |
| 5 | 05:20 | 06:40 | 12:29 | 16:32 | 18:31 | 19:32 |
| 6 | 05:21 | 06:41 | 12:29 | 16:31 | 18:30 | 19:30 |
| 7 | 05:22 | 06:42 | 12:28 | 16:30 | 18:28 | 19:28 |
| 8 | 05:23 | 06:43 | 12:28 | 16:28 | 18:26 | 19:27 |
| 9 | 05:25 | 06:44 | 12:28 | 16:27 | 18:25 | 19:25 |
| 10 | 05:26 | 06:45 | 12:27 | 16:25 | 18:23 | 19:24 |
| 11 | 05:27 | 06:47 | 12:27 | 16:24 | 18:22 | 19:22 |
| 12 | 05:28 | 06:48 | 12:27 | 16:23 | 18:20 | 19:21 |
| 13 | 05:29 | 06:49 | 12:27 | 16:21 | 18:19 | 19:19 |
| 14 | 05:30 | 06:50 | 12:26 | 16:20 | 18:17 | 19:18 |
| 15 | 05:31 | 06:51 | 12:26 | 16:18 | 18:16 | 19:16 |
| 16 | 05:32 | 06:52 | 12:26 | 16:17 | 18:14 | 19:15 |
| 17 | 05:33 | 06:53 | 12:26 | 16:16 | 18:13 | 19:13 |
| 18 | 05:34 | 06:54 | 12:26 | 16:14 | 18:11 | 19:12 |
| 19 | 05:35 | 06:55 | 12:25 | 16:13 | 18:10 | 19:10 |
| 20 | 05:36 | 06:56 | 12:25 | 16:12 | 18:08 | 19:09 |
| 21 | 05:37 | 06:57 | 12:25 | 16:10 | 18:07 | 19:08 |
| 22 | 05:38 | 06:58 | 12:25 | 16:09 | 18:06 | 19:06 |
| 23 | 05:39 | 06:59 | 12:25 | 16:08 | 18:04 | 19:05 |
| 24 | 05:40 | 07:01 | 12:25 | 16:06 | 18:03 | 19:04 |
| 25 | 05:41 | 07:02 | 12:24 | 16:05 | 18:02 | 19:03 |
| 26 | 05:42 | 07:03 | 12:24 | 16:04 | 18:00 | 19:01 |
| 27 | 05:43 | 07:04 | 12:24 | 16:03 | 17:59 | 19:00 |
| 28 | 05:44 | 07:05 | 12:24 | 16:01 | 17:58 | 18:59 |
| 29 | 05:45 | 07:06 | 12:24 | 16:00 | 17:56 | 18:58 |
| 30 | 05:46 | 07:07 | 12:24 | 15:59 | 17:55 | 18:57 |
| 31 | 05:47 | 07:08 | 12:24 | 15:58 | 17:54 | 18:55 |

## İƏT-İN BAŞ KATİBİ ANTİ-MÜSƏLMAN RİTORİKASININ GÜCLƏNMƏSİNDƏN NARAHATLIĞINI İFADƏ EDİB



İslam Əməkdaşlıq Təşkilatı (İƏT) Avropa Müsəlmanları üzrə Təmas Qrupunun Nyu-Yorkda Birləşmiş Millətlər Təşkilatı Baş Assambleyasının 78-ci sessiyası çərçivəsində keçirilən iclasında çıxış edən İƏT-in Baş katibi Hissein Brahim Taha anti-müsəlman ritorikasının və müsəlmanlara qarşı nifrət hisslərinin intensivliyinin artması ilə bağlı dərin narahatlığını ifadə edib.

Baş katib İƏT-in bəzi Avropa ölkələrində "Qurani-Kərim"in nüsxələrinin təhqir edilməsi və yandırılması hallarını kəskin şəkildə pislədiyini bildirib. O qeyd edib ki, bununla əlaqədar İƏT Xarici İşlər Nazirləri Şurasının on səkkizinci fövqəladə sessiyası və İƏT İcraiyyə Komitəsinin təcili iclası keçirilib, müvafiq qərarlar qəbul olunub. Hissein Brahim Taha hökumətləri mədəniyyətlər arasında harmoniya, anlaşma, tolerantlıq və qarşılıqlı hörmət dəyərlərini təşviq etmək məqsədilə aparılan konstruktiv dialoqu dəstəkləmək üçün daha çox səy göstərməyə çağırıb.

Bundan əlavə, iclasda İsveç və Danimarkada "Qurani-Kərim"in yandırılması kimi dəhşətli təcavüz aktları ən kəskin şəkildə pislənilib. Baş katib bu kontekstdə həmin cinayətlərlə bağlı Xarici İşlər Nazirləri Şurasının son qətnaməsinin yerinə yetirilməsi öhdəliyini bir daha xatırladıb.

İclasda bir sıra ölkələrə bütün müsəlmanların dini azadlıqlarına hörmətlə yanaşılması, onların hüquq və əsas azadlıqlarının məhdudlaşdırılmaması, o cümlədən mədəni kimliklərini həyata keçirmək hüququndan məhrum edilməməsi çağırışı edilib. Hissein Brahim Taha bəzi Avropa ölkələrində anti-müsəlman əhvali-ruhiyyəsi, islamofobiya, nifrət nitqi, sağçı ekstremizmin narahatedici tendensiyası və müsəlmanları hədəf alan zorakılıq hadisələri ilə bağlı dərin narahatlığını ifadə edib.

### Yadigar söz

*Cübran Xəlil Cübran*

*Gözəlliyin hüdudlarından kənarda nə din var, nə elm.*


Baş redaktor **Səyyad ARAN**

**Redaksiya şurası:**
Şeyxülislam Allahşükür PAŞAZADƏ, Anar, Əflatun AMAŞOV, Gövhər BAXŞƏLİYEVA, Nizami CƏFƏROV
Raman DADAŞOV (Məsul katib).

Ünvan: AZ 1001, Bakı şəhəri, Şeyx Şamil küçəsi 5
Telefon: 505 78 16; 505 78 19
E-mail: redaksiya@scwra.gov.az

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin bölgələr üzrə müxbir məntəqələri:
Bakı şəhəri üzrə şöbə - (012) 433 86 51
Sumqayıt bölgəsi üzrə şöbə - (018) 654 00 40
Lənkəran bölgəsi üzrə şöbə - (025) 255 39 84
Masallı bölgəsi üzrə şöbə - (025) 215 51 59
Şirvan bölgəsi üzrə şöbə - (021) 215 21 30
Quba bölgəsi üzrə şöbə - (023) 335 22 70
Ucar bölgəsi üzrə şöbə - (020) 235 50 97
Yevlax bölgəsi üzrə şöbə - (022) 336 55 95
Ağcabədi bölgəsi üzrə şöbə - (021) 275 52 00
Zaqatala bölgəsi üzrə şöbə - (024) 225 32 23
Şəki bölgəsi üzrə şöbə - (024) 244 03 16
Şamaxı bölgəsi üzrə şöbə - (055) 291 40 80
Gəncə bölgəsi üzrə şöbə - (022) 256 91 14
Tovuz bölgəsi üzrə şöbə - (050) 499 07 53
İmişli bölgəsi üzrə şöbə - (021) 246 62 99

Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində yığılıb səhifələnmişdir.

*Əlyazmalara rəy verilmir və onlar geri qaytarılmır.*

Aylıq qəzet

Qəzet 7 may 2009-cu ildən nəşr olunur. *Azərbaycan Respublikası Ədliyyə Nazirliyində 19 mart 2009-cu ildə qeydiyyatdan keçmişdir. Qeydiyyat nömrəsi:* 2894